

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yaşıl enerjinin istehsalı Azərbaycanın enerji siyasətinin prioritetidir"**




3

№ 134 (7059)

# SƏS

30 iyul 2024-cü il.
Qiymәti 60 qәpik

# Şəhid ailələri daima dövlətin diqqət və qayğısı altındadır



2

*Prezident İlham Əliyev: "Mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin"*

# Parisdən Olimpiya rəzilliyi





4






**"Qərb Qafqazı təhlükəli geosiyasi dəyişikliklərə sövq edir"**



9

**Bir əlifba xəstəlik – Hepatitlər**




12

**Əli Kərimlinin satqınlığını əks etdirən səs yazısı üzə çıxa bilər**



14

## Hidayət Heydərov Olimpiya çempionudur!

Azərbaycan cüdoçusu Hidayət Heydərov "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb. 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada fransalı Con Benjamin Qabaya qızıl xal bölümündə ipponla qalib gələn cüdoçumuz Olimpiya çempionu adını qazanıb və "Paris-2024"də millimizin aktivinə ilk medalı yazdırıb.




## Acı dadmayan soğan



11

# Şəhid ailələri daima dövlətin diqqət və qayğısı altındadır



*Prezident İlham Əliyev: "Mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin"*

***Bu gün ölkəmizdə bütün dünyaya örnək olacaq sosial siyasət modeli həyata keçirilir. İnsan amilinin prioritet olduğu Azərbaycan cəmiyyətində 44 günlük zəfər müharibəsində şəhid olmuş vətən övladlarının ailələri, eyni zamanda müharibə iştirakçısı olan əsgərlərimiz diqqət və qayğı ilə əhatə olunublar.***



Azərbaycanda şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yüksək dövlət qayğısı, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və bərpa işlərinin aparılması ilə ölkəmiz yeni mərhələyə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı, azad olunmuş torpaqlarımıza etdikləri səfərlər çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin həlli təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, ”Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır”.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir.

Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda vuruşan hərbçilərimizə və onların ailələrinə diqqət və qayğı göstərilməsi diqqətdədir. Ölkə Prezidentinin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədi ilə ”YAŞAT” Fondu yaradılıb. Eləcə də, ”Qarabağ Dirçəliş” Fondu ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və bərpa işlərinin aparılmasına töhfələr verir. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət və təqaüdlə yanaşı, Prezident təqaüdü verilir.





## “BİZİM BU SAHƏDƏKİ SİYASƏT, SÖZÜN ƏSL MƏNASINDA, MİLLİ SİYASƏTDİR”

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Sosial dəstək tədbirləri çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan şəxslərə sosial ödəniş və birdəfəlik ödəmə təyin olunub. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Belə ki, şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlar 6 000 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib. Bu sahədə tətbiq olunan prinsiplərin öz unikallığı ilə seçildiyini çıxışlarının birində bildirən Cənab Prezident qeyd edib ki, bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin: ”Ermənistan da itkilər verib və İkinci Qarabağ müharibəsində bizdən haradasa 2-3 dəfə çox itki verib. Amma baxın görün, orada müharibədə ölənlərin ailəsinin birinə bir mənzil verilir? Yox. Avtomobil verilir? Yox. Bir daxma da verilmir. Yəni, bu onu göstərir ki, bizim bu sahədəki siyasət, sözün əsl mənasında, milli siyasətdir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”.

## 471 ŞƏXS 492 ƏDƏD YÜKSƏK TEXNOLOGİYALI MÜASİR PROTEZLƏ TƏMİN OLUNUB

Şəhid ailələri və müharibə əlillərinə mənzillə təminat prosesi davamlı olaraq həyata keçirilir və 2025-ci ilə qədər yekunlaşdırılması üçün dövlət tərəfindən vacib addımlar atılır. Yuxarıda qeyd etdiklərimizlə yanaşı, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 63 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 2147 şəxs 56,2 min reabilitasiya vasitəsi, o cümlədən 471 şəxs 492 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub.

Statistik rəqəmlərə əsasən, deyə bilərik ki, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 21,8 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,5 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 344 min xidmət göstərilib.

Təbii ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

***İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng ediblər.***

Dövlətimizin başçısı və birinci xanım Olimpiadanın cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə Hidayət Heydərova təbriklərini çatdırıb, ona gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

Hidayət Heydərov telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma təşəkkürünü bildirib, Olimpiadada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqdan və Dövlət Himnimizin səsləndirilməsindən qürur duyduğunu vurğulayıb. O, yeni uğurlar əldə etmək üçün bundan sonra da səylə fəaliyyət göstərəcəyini deyib.




# "Yaşıl enerjinin istehsalı Azərbaycanın enerji siyasətinin prioritetidir"



***"Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan yaşıl enerji ilə bağlı iddialı layihələrlə çıxış edir. Bütövlükdə, Azərbaycan hökuməti 2030-cu ilə qədər enerji tələbatının 30 faizini bərpa olunan mənbələr hesabına ödəməyi qarşısına məqsəd qoyub. Bərpa olunan enerji iqlim məqsədlərinə nail olmaq üçün ən perspektivli həlli təklif edir. Azərbaycan 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35%, 2050-ci ilə qədər isə 40% azaltmağı öhdəsinə götürüb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Kərimli deyib.***

O bildirib ki, COP29-a ev sahibliyi etmək bütün dünyaya nümayiş etdirəcək ki, ölkənin əsas neft və qaz istehsalçısı olmasına baxmayaraq, Azərbaycanın əsas gündəliyi yaşıl enerjidir. Yaşıl enerjinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda enerji siyasətimizdə prioritet məsələdir. Ölkəmiz sözügedən tədbirə ev sahibliyi etməklə ətraf mühitə verdiyi önəmi, daha geniş mənada gələcək nəsillərə sağlam dünya ötürməyə qayğı göstərdiyini göstərir. Bu gün Azərbaycan da digər ölkələr kimi ekoloji problemlərdən əziyyət çəkir. 30 ilə yaxın ərazilərimizin işğalı, minlərlə hektar meşələrin yandırılması və məhv edilməsi, işğal zamanı çaylarımızın, su anbarlarımızın çirklənməsi ümumi ekoloji vəziyyətə son dərəcə mənfi təsir göstərib. Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını Yaşıl Enerji Zonası elan edib. Məqsəd 2050-ci ilə qədər bu əraziləri "xalis sıfır emissiya" zonalarına çevirməkdir.

Azərbaycanın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında su enerjisi mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, həmçinin Tərtərdə bioenerji ehtiyatları mövcuddur. Onların səmərəli istifadəsi nəticəsində ölkəmiz "yaşıl" enerjinin istehsalçısı və istehlakçısına çevrilə bilər. Hazırda Xəzərin su ehtiyatları tədricən azalır. Bu həm ekoloji, həm də iqtisadi problemlər yaradır. Xəzərin geri çəkilməsi indiki kimi davam edərsə, məsələn, "Orta Dəhliz"də yerləşən ölkələr kommunikasiya layihələri ilə bağlı ciddi problemlərlə üzləşəcəklər. Çünki bu mühüm transmilli layihə Xəzər dənizindən keçir. Dənizin geri çəkilməsinin əsas səbəblərindən biri də Xəzər dənizinin əsas su mənbəyi olan Volqa çayında suyun azalmasıdır. Belə ki, COP29 çərçivəsində keçiriləcək tədbirlərdə həm dünyanın, həm də Azərbaycanın ekoloji problemləri diqqətə çatdırılacaq və müzakirə ediləcək.

COP29 Azərbaycan və Qazaxıstandan Qara dəniz vasitəsilə Avropaya yaşıl enerji layihəsinin həyata keçirilməsini də sürətləndirə bilər".

***Səbinə Hüseynli***

# "Qərb Ermənistanı silahlandırmaq siyasətini dayandırmaq fikrində deyil"




***"Qərb 44 günlük Qarabağ müharibəsində və sonrakı müddətdə Ermənistanı silahlandıraraq bölgədə qarşıdurmanı gücləndirir. Bu addım iki ölkə arasında gərginliyi qoruyub-saxlamaq siyasəti yürüdür, Azərbaycan və Ermənistan arasında gedən sülh danışıqlarını pozmaq istiqamətində addımlar atılmaqdadır".***

Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, bəzi Qərb ölkələri və Hindistan birtərəfli qaydada Ermənistanı silahlandırmaq kimi çirkin planını həyata keçirməyə çalışır: "Görünən odur ki, Qərb Ermənistanı silahlandırmaq siyasətini heç bir vəchlə dayandırmaq fikrində deyil. Hədəfi də bəllidir - Azərbaycanla Ermənistan arasında sülhün Ermənistanın xeyrinə nizamlanması prosesində "vasitəçi" rolunu oynamağa çalışır. Bu plan baş tutmadıqda isə regionu yeni hərbi eskalasiyaya sövq edir.

Hindistan özü hazırda dünyada silah sənayesində öncül ölkələrdən deyil, xüsusən də modern silahlar sahəsində. Dehli özü hazırda dünyada ən çox silah alan ölkələr sırasında yer alır. Lakin eyni zamanda, silah istehsalı həyata keçirir və bunun bir qismini satır. Hindistanın silahları Ermənistanı Azərbaycan qarşısında gücləndirmək iqtidarında deyil, lakin bu silahlanma Ermənistanda revanşist qüvvələrin əl-qolunu açır. Başqa sözlə, Hindistanın verdiyi silahlar erməniləri yeni təxribatlara sövq edir.

Ancaq Hindistan yalnız silah satmaqla Ermənistanı dəstəkləmir, həm də siyasi-diplomatik cəbhədə düşmən ölkə ilə tərəfdaşlıq edir. Məsələn, sentyabrın əvvəlində Azərbaycan-Ermənistan sərhədində baş verən toqquşmalar BMT-də müzakirə olunan zaman Hindistan nümayəndəsi çıxış edərək açıq-aşkar işğalçı Ermənistanı dəstəkləyib və Azərbaycanı "təcavüzkar tərəf" adlandırıb".

"Azərbaycanın Hindistanla yaxşı əlaqələri mövcuddur. Tez-tez Bakıda Hindistan sərgiləri, birgə toplantılar keçirilir. Hindistan və Azərbaycanın ciddi ikitərəfli iqtisadi və ticarət əlaqələri mövcuddur. Hindistan Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. Lakin bütün bunlara baxmayaraq, Dehli müəyyən səbəblərdən Ermənistanı seçib. Aydın məsələdir ki, burda əsas səbəb Azərbaycanın Pakistanla yaxınlaşması, rəsmi Bakının beynəlxalq platformalarda Pakistanın mövqeyini dəstəkləməsi, Kəşmir münaqişəsi ilə bağlı İslamabadın yanında dayanması bu məsələdə rol oynayır. Dövlətimiz hər zaman beynəlxalq məsələlərdə haqlı mövqedən çıxış edib, bundan sonrada bu belə olacaqdır" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Qafqazda yeni nizam



Qafqaz regionunda "yeni nizam" qurulub. Bu fikri Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğan da daxil olmaqla bir sıra siyasətçi səsləndirib. Eyni zamanda, bu fikir səsləndirildiyi yerə görə fərqli mövzuları əhatə edir. Məsələn, Rəcəb Tayyib Ərdoğan bu fikri səsləndirdikdə Ermənistanla yaxşılaşan əlaqəri nəzərdə tutur. Rəcəb Tayyib Ərdoğan deyib: "Artıq reallıqlar əsasında yeni yol xəritələri yaratmağın vaxtı çatıb". Belə ki, Qafqazda artıq reallıqlara uyğun hərəkət etmək daha məntiqlidir. Çünki onun yeni və eyni zamanda ən qədim sakinləri ədalə-ti gerçəklərə uyğun şəkildə bərpa ediblər. Belə vəziyyətdə ən məntiqlisi əsassız iddialardan qurtulmaqdır. Görünən odur ki, Qafqazın ən şıltaq aktoru Ermənistan belə artıq daha realist ola bilir. O Azərbaycana qarşı Qarabağ iddialarından geri çəkildiyi kimi Türkiyəyə qarşı da qondarma erməni soyqırımından da əl çəkməkdədir. Təsadüfi deyil ki, son illər ərzində Türkiyə və Ermənistan arasında birbaşa uçuşlar bərpa edilib və yük daşımalarının bərpası barədə razılıq əldə edilib.

Azərbaycana gəldikdə isə yeni nizamdakı qazancımız və məsuliyyətimiz daha böyük görünür. Azərbaycan eyni zamanda regional və beynəlxalq səviyyədə mövqelərini kifayət qədər möhkəmləndirib, Qarabağ məsələsini tamamilə bitirib və İranla münasibətlərini normallaşdırmağa nail olub. Ermənistan və İran münasibətlərinə baxdıqda isə Ermənistan, ABŞ və Fransa ilə yaxınlaşandan sonra Tehran İrəvanla münasibətlərinə yenidən baxıb. Belə ki, İrana görə, Qərbin Ermənistanda möhkəmlənməsi Rusiya kimi İran üçün də təhdiddir. Belə olan vəziyyətdə İran da adekvat addım ataraq Azərbaycanla olan münasibətlərini bərpa etmək qərarına gəlib. Beləliklə, geridə qoyduğumuz həftələrdə Azərbaycanın Tehrandakı Səfirliyinin öz fəaliyyətini bərpa etməsi, heç də təsadüfi deyil. Digər tərəfdən İrandakı hakimiyyət dəyişikliyindən sonra İran tərəfindən daha mülayim və aktiv siyasət yürüdüləcəyini təxmin etsək yanılmarıq. Belə olan vəziyyətdə İran Azərbaycan, Türkiyə kimi regional və iqtisadi güclərin qarşılıqlı olaraq münasibətlərini yaxşılaşdırması Qafqazda, hətta Avrasiyada münbit nəticələr verəcək.

***Zərdüşt Quluzadə***

# Turizm üçün füsunkar məkan - Qarabağ və Şərqi Zəngəzur!

## İlham Əliyev: "Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var "



***Müasir dünyaya yeni imicdə, müasir və inkişaf etmiş ölkə olaraq təqdim olunan Azərbaycanın bütün sahələrdə həyata keçirilən layihələri hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Azərbaycanın hər bir bölgəsi turizm üçün yararlıdır. Azərbaycan inkişaf etmiş turizm ölkəsidir. Ölkəmizin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri Odlar diyarını turistlər üçün cəlbedici edib. Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər, respublikamızın siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış etməsi ölkəmizin dünyada olan imicini daha da yüksəldib.***

Əlbəttə ki, 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş Şuşa, Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə abadlıq-quruculuq işləri aparılır və turistlərin diqqəti həmin məkanda olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edilir. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşa çevrilib. Ermənilərin qurbanına çevrilən abidələrimiz bərpa və təmir edilir, şəhərlərimiz müasir məkana çevrilir. Artıq Füzuli rayonundan Şuşaya gedən Zəfər yolu turizm marşrutuna çevrilir. Bununla bağlı konseptual layihə icra olunur. Son vaxtlar Şuşa və Laçın şəhərlərinə fərdi avtomobil ilə turist səfərlərinin sayında artıb baş verib.

### ŞUŞA ŞƏHƏRİNƏ ÜMUMİLİKDƏ 72 298 NƏFƏR SƏFƏR EDİB

Xatırladaq ki, təkcə Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində Şuşa şəhərinə 2650 avtomobil ilə 12 528 nəfər, Laçın şəhərinə isə 2 296 fərdi avtomobil ilə 8 330 nəfər səfər edib. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, Şuşaya səfər edənlərin 1779 nəfəri, Laçına səfər edənlərin isə 709 nəfəri hotellərində istirahət ediblər. 2023-cü il dekabrın 27-dən 2024-cü il iyunun 19-dək Şuşa şəhərinə ümumilikdə 72 298 nəfər səfər edib. Bu il aprelin 27-dən iyunun 19-dək Laçın şəhərinin səfər edənlərin sayı isə 42 670 nəfər olub. Qeyd edək ki, Laçın şəhərinə giriş 2 yoxlanış-nəzarət məntəqəsi (Şuşa və Güləbird postları) vasitəsilə həyata keçirilir. Qeyd edilən tarixlər üzrə Şuşa postundan 5673 avtomobil ilə 15839 nəfərin, Güləbird postundan isə 9937 avtomobil ilə 26831 nəfərin keçidi təmin edilib

Artıq Şuşada Otel-Konqres Mərkəzi Kompleksi istifadəyə verilib. Xatırladaq ki, erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, "şeytan yuvası" – "parlamentin" binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilib. Prezident İlham Əliyev Şuşaya səfərində bu barədə demişdi: "Qondarma rejim bəyan etmişdi ki, "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilmişdi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi". Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

### FASİLƏSİZ TURİZM POTENSİALINA SAHİB MƏKAN

İşğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var.

Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında tikintisi davam etdirilən beynəlxalq hava limanları azad edilmiş ərazilərimizin turizm potensialının reallaşmasında, turist cəlbində mühüm rol oynayacaq.

Şuşa mədəniyyət paytaxtı olduğu kimi, turizm mərkəzi olmaq imkanına da malikdir. Burada təbiət və mədəniyyətin nadir ahənginə şahid olmaq mümkündür. Şuşa şəhəri həm fəsil, həm də nadir memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına sahibdir və bu potensiala uyğun turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. İlk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksi açılıb. Qeyd edək ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. Bildiyimiz kimi, Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Bütün bu və ya digər görülən və görüləcək işlər onu deməyə əsas verir ki, Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənir. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir ab-havası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitibtükənməyən nümunələri böyük maraq doğurur. Dövlət başçısı çıxışlarının birində vurğuladığı kimi, "Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək."

### HƏR DAŞI TARİX OLAN ŞƏHƏR

İşğaldan azad olunan ərazilərimiz sırasında Ağdam da var ki, 27 ildən sonra günəş şüaları ilə nurlanmış bu şəhər yeni dövrünə qovuşub. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Qeyd edək ki, rayon ərazisinin 88%-i 1993-cü il iyul ayının 23-də ermənilər tərəfindən işğal edilmişdir. Rayonun ərazisində qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri vardır. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdir. Rayonun onlarla tarixi yaşayış məskənləri Eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Bu maddi-mənəvi abidələr müxtəlif bölgü əsasında qruplaşdırılmış və hər biri tarixə əsaslanaraq, "Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba daxil edilmişdir. 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidinin memarı Kərbəlayi Səfixan Qarabağidir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür. Mənbələrdə göstərilir ki, məscidin giriş qapısı Səfəvi memarlığı üçün xarakterik olan iri tağ portalın içindədir. Azərbaycan memarlığının incilərindən sayılan Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur.

Əlbəttə ki, Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. İlk atılan mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. Digər mərmi isə 1992-ci ilin avqust ayının 12-də Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, muzeyi tamamilə məhv etmişdir. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olmuşdur.Burada gündə 8-10 ton buğda üyütmək gücü olan mexaniki dəyirman yerləşirdi və 1930-cu illərində istifadə edilən "Triyer" taxıl təmizləyici qurğusu sərgilənirdi. Muzeydə əmək alətləri – xış, vəl, çin, oraq, II əsrə aid əl dəyirmanı (kirkirə), "çarçar" adlı taxıldöyən yer almışdı. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Ermənistan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı. Müxtəlif taxıl növləri, buğdadan hazırlanmış eksponatlar, müharibə dövründə uşaqlara verilən çörək kartoçkalar, eləcə də, buğda dənələrindən düzəldilmiş Azərbaycan xəritəsi və muzeyin eksponatları sırasında rəngarəngliyi ilə seçilib. Maraq doğuran məqamlardan bir də muzeyin divarlarında əks olunmuş atalar sözləri olub. "Çörək baha olanda ölüm ucuz olar", "Qılınc kəsməyəni çörək kəsər" atalar sözləri də çörəyin müqəddəsliyini, gücünü, qüdrətini bir daha ziyarətçilərə xatırladım. Müqəddəs olan kəlamlar bu muzeyin dəyərini daha da artırmışdı. Onu da vurğulamaq yerinə düşər ki, 1980-cı illərdə Ağdamda keçirilən "Natəvan" qızlar bayramı, "Xarı Bülbül" beynəlxalq festivalı məhz muzeyə baxışla başlanarmış. Hər daşı bir tarix olan Ağdam şəhəri öz keçmiş imicini yenidən özünə qaytaracaq və Azərbaycanın turizm bölgəsi kimi Ağdamın da bu sırada öz yeri və payı olacaqdır.

**Zümrüd BAYRAMOVA**




# Parisdən Olimpiya rəzilliyi

## Makronun bir əlində qılınc, o birində sülh göyərçini

***Fransada keçirilən XXXIII Olimpia Oyunları dünyanın gərgin geosiyasi vəziyyətində baş tutdu. Bu gün həm də dünyanın hər yerində, o cümlədən Avropa və Asiyada qarşıdurmalar, iri toqquşmalar davam edir. Bu da Fransa prezidenti Makron və BOK-un prezidenti Baxın təklif etdiyi Olimpiya atəşkəsinin sönməsini tezləşdirir. Onların ikiüzlü "dinc" çağırışlarına indi heç kim qulaq asmır. Bu münasibət əsasən münaqişə zonalarında ölüm-dirim savaşı aparanlar tərəfindən edilir.***

Dünya insanının böyük dövlətlərə inamı qalmayıb. Sülhdən yalnız kağız üzərində danışırlar. Bir əllərində sülh çələngi, o biri əlində qılınc tutmaq daha çox müharibə tərəfdarı olmaq deməkdir. Cənubi Qafqazda olduğu kimi. Bu gün 33-cü Olimpiya Oyunlarının təşkilatçısı Fransa Cənubi Qafqazda yeni müharibəni alovlandırmağa cəhd edir. 30 ildən sonra işğal etdiyi Azərbaycan torpaqlarından qovulan Ermənistan ötən 3 il yarım ərzində rəsmi Bakının səyləri ilə sülhə məcbur edilir. Amma, sülh müqaviləsinin imzalanması heç üfüqdə də görünmür. Buna səbəb Fransanın Ermənistanı revanş üçün yenidən silahlandırmasıdır.

### Rəzillik...

Olimpiadanın açılış mərasimində baş verənlərin isə misli-bərabəri yoxdur. Bunu yalnız bir sözlə ifadə etmək olar - rəzillik. Belə ki, Parisdə keçirilən Yay Olimpiadasının açılış mərasimində Fransanın dövlətə məxsus "France2" telekanalının aparıcısı Loran Delausun milli komandaların keçidi zamanı səsləndirdiyi fikirlər böyük qalamaqala səbəb olub. Fransız teleaparıcı Azərbaycan və





Ermənistan idmançılarının keçidi zamanı ayrı-seçkilik edib, Azərbaycanı Ermənistanla hərbi toqquşmalarda günahlandırıb. Erməni idmançılar paraddan keçərkən, o deyib: "Və təbii ki, bizim dostlarımız ermənilərdir. Ermənistan tarixən fransızların qəlbinə yaxın bir ölkədir. Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan ordusunun əlinə keçməsi və itirilməsilə nəticələnib".

Fransa telekanalının bu təxribatı diplomatlar arasınmda mübahisəyə də səbəb olub. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini "X" sosial şəbəkəsiondə "Frans2" telekanalının aparıcısının sözlərini sitat olaraq paylaşıb. Azərbaycan Respublikasının Niderland Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev isə "X" sosial şəbəkəsində fransız teleaparıcı və səfirə cavab verib. "Ermənilər təbii ki, sizin dostlarınızdır. Amma Qarabağın "yıxılması" deyil, onun yeniləşməsi, dirçəlişi başlayır, gözəl perspektivləri açılır. Ermənilər "yaxşı oğlanlar" olsalar, bu perspektivlərdən yararlana biləcəklər", - deyə azərbaycanlı səfir fransızca onlara cavab yazıb.

Rəhman Mustafayevin reaksiyası Fransanın Ermənistandakı səfiri Olivye Dekotinini özündən çıxarıb. O, "Qarabağ ermənilərinin öz evlərinə qayıtmaq hüququ var", - deyə "X" platformasında azərbaycanlı səfirin paylaşımına qarşı qəzəbini ifadə edib. Əlbəttə, Fransanın "France 2" telekanalının Olimpia Oyunlarının prinsiplərinə yad mövqe sərgiləməsi və Bakının ünvanına səsləndirdiyi qərəzli və yalançı fikirlərlə bağlı Beynəlxalq Olimpiya Komitəsinə (BOK) şikayət edilib.

Bakı Təşəbbüs Qrupu Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında olimpiada prinsiplərinin pozulduğuna dair bəyanat yayıb. Bəyanatda xatırladılıb ki, Olimpiya Xartiyasında qeyd edildiyi kimi, Olimpiya hərəkatının məqsədi insan ləyaqətinin qorunmasına xidmət edən dinc bir cəmiyyəti təşviq etmək üçün idmanı bəşəriyyətin harmonik inkişafına yönəltməkdir. Fransa Respublikasının prezidenti Emmanuel Makron və onun Hökuməti hazırda Fransada keçirilən 2024 Paris Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, Fransanın kolonial və neokolonial siyasəti bunun əksini deyir. Belə olan halda XXI əsrdə "sülh və ümid anı" olan Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi? Olimpiya Oyunlarına ev sahibliyi edən ölkə Kanakidə azadlığa qoyulan məhdudiyyətləri aradan qaldıra, həmçinin siyasi məhbusları azad edə bilməzdimi? Onlarında öz evlərində, azyaşlı uşaqları ilə birlikdə bu "sülh anını" yaşamaq hüququ var.

Qərbi Azərbaycan İcması da Fransaya etiraz bəyanatı ünvanlayıb. Qeyd olunub ki, olimpiadanın açılışı mərasimində milyardlarla insanın heysiyyətinə toxunan rəzalət nümayişlərini də nəzərə alsaq, Fransa tərəfinin rasionallığı tamamilə şübhə altındadır: "Qərbi Azərbaycan İcması 2024-cü il Paris olimpiadasında Azərbaycana qarşı yol verilmiş təxribatı sərt şəkildə qınayır və Fransadan bu əməllərinə son verməyi tələb edir".

...Cümə günü Parisdə otuz üçüncü Olimpiya Oyunlarının rəsmi açılış mərasimi baş tutub. Bütün dünyanın gözü bu şəhərə dikilib, nəfəslər çəkilib. 16 gün ərzində Fransanın paytaxtında dünyanın ən böyük idmançılarının iştirakı ilə yarışlar keçiriləcək. Sülh göyərçinləri səmaya uçacaq, Olimpiya bayrağı yüksələcək və himnlər səslənəcək, Respublika Prezidenti Emmanuel Makron ənənəvi sözləri tələffüz edəcək və bir milyard yarım televiziya tamaşaçısı 2024-cü il Yay Olimpiya Oyunlarının rəsmi açılışını görəcək.

Lakin bu Olimpiada təlatümlü və gözlənilməz geosiyasi reallıqlar fonunda baş tutur. Bunlara çoxlu sayda mülki əhalinin itkisi (xüsusilə Qəzza zolağında), döyüş əməliyyatlarının Avropa qitəsinə qayıtması (Rusiyanın Ukraynada hərbi əməliyyatı) və böyük dövlətlər arasında güclənən və getdikcə daha təhlükəli olan rəqabət daxildir. Noyabrda ABŞ-da keçiriləcək prezident seçkiləri və respublikaçı Donald Trampın Ağ Evə qayıtması ehtimalı qeyri-müəyyənliyi artırır.

Ardı Səh. 6






# Parisdən Olimpiya rəzilliyi

Əvvəli-Səh-5

Emmanuel Makron xüsusi illüziyalarla yenə də müharibə edən tərəfləri Olimpiya atəşkəsinə çağırıb. Birgə müraciət mayın əvvəlində, Çin sədri Si Cinpinin Fransaya səfəri zamanı da elan edilib. 2023-cü ilin noyabrında BMT Baş Assambleyası da müvafiq qətnamə qəbul edib: atəşkəs 1994-cü ildə Norveçin Lillehammer şəhərində keçirilən Qış Olimpiya Oyunlarından sonra ənənəyə çevrilib.



**BOK-un prezidenti Bax və Fransa prezidenti Makron**

Amma boş yerə, hazırkı münaqişələrin heç birinin Olimpiya yarışları zamanı dayanması ehtimalı yoxdur, hətta əksinə. Qərbin Kiyevi dəstəkləməsinə baxmayaraq, döyüşlərin dalana dirəndiyi Ukraynanın şərqində Rusiya mövqelərini gücləndirir. İsrailin 2023-cü il oktyabrın 7-də Fələstinin Həmas hücumuna verdiyi cavab nəticəsində 39.000-dən çox insanın həlak olduğu Qəzza zolağında atəşkəs də eyni dərəcədə çətinləşir. Bu iki münaqişə fonunda Qlobal Cənub ölkələri Qərbin ikili standartlar siyasətinə həmişəkindən daha çox tənqidi yanaşırlar.



Olimpiya Xartiyası "idman bəşəriyyətin ahəngdar inkişafına xidmət edir" və "insan ləyaqətinin qorunması ilə məşğul olan dinc cəmiyyət" ideallarını açıq şəkildə bəyan edir. Əslində, Olimpiada heç vaxt müharibələrin dayandırılmasına və ya hətta dayandırılmasına kömək etməyib. Onlar diplomatiyaya töhfə verə bilərlərmi?

Cümə günü yüzdən çox xarici dövlət və hökumət başçısı 204 Olimpiya komitəsindən 6-7 min idmançı açılış mərasimində və paradda iştirak etmək üçün Sena sahillərinə gəlib. Qonaqlar arasında Vladimir Zelenski, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd Bin Salman, Seneqal lideri Bassirou Diomaye Faye və Argentina lideri Xavier Miley də var.

Bayramda bütün qitələr təmsil olunub, lakin dünyanın aparıcı liderləri - həyat yoldaşı Cilini Parisə göndərən ABŞ prezidenti Co Bayden, Çin lideri Si Cinpin, Hindistanın baş naziri Narendra Modi, Braziliya prezidenti Luiz Lula da Silva Fransaya səfər etməyi lazım bilməyiblər. Vitse-prezident və Demokratlar Partiyasından prezidentliyə namizəd Kamala Harris də Parisə getməyib, əvəzində əri Doug Emhoffu bağlanış mərasiminə göndərəcək.

### Sadə parislilər oyunlara dəmir torların arxasından baxır

Rusiya Qərbin sanksiyaları altında olduğundan Rusiya prezidenti Vladimir Putin dəvət olunmayıb. Rusiya nümayəndə heyəti minimum səviyyəyə endirilib, çünki iyulun ortalarında Beynəlxalq Olimpiya Komitəsi (BOK) ciddi bitərəf statusu nəzərə alınmaqla yarışda yalnız 15 idmançının iştirakına icazə verib. 2021-ci ildə Tokioda 300-dən çox rusiyalı çıxış edib.

Beləliklə, Kreml və BOK arasında uzun müddətdir davam edən mürəkkəb münasibətlər Rusiyan Ukraynadakı xüsusi hərbi əməliyyatından sonra başlayıb. Qərargahı İsveçrənin Lozanna şəhərində yerləşən Olimpiya təşkilatı Rusiya və onun müttəfiqi Belarusu oyunlarda iştirakdan məhrum etmək qərarına gəlib. Sonradan BOK tədricən dayandırılmış ölkələrin idmançılarının yarışlarda iştirak etmək üçün qayıtmalarına icazə verməyə başlayıb.

2023-cü ilin mart ayının sonunda BOK beynəlxalq idman federasiyalarına bir sıra tövsiyələr göndərib və dekabrda komitə ruslara və belaruslara Paris Oyunlarında fərdi seçimdə (komanda idmanı olmadan), neytral bayraq altında iştirak etməyə icazə verib (dövlət himni və ya rəngli simvolların nümayişi olmadan) və bir şərtlə ki, iştirakçı idmançılar Rusiyanın Ukraynadakı hərbi əməliyyatını dəstəklədiklərini bəyan etməmiş olsunlar və silahlı qüvvələrlə əlaqəli olmasınlar.

Moskva bu məhdudiyyətləri qəbuledilməz hesab edib. Kreml BOK-u "irqçilik və neonasizmə sürüklənməkdə" ittiham edib. Olimpiya qələbələri ilə tanınan Rusiya ilə dünya idmanının bir növ himayədarı rolunu oynayan BOK nəhayət ki, üz-üzə qalıb.

İyulun 26-da, Fələstin (səkkiz idmançı) və İsrail (88 idmançı) komandaları açılış mərasimində - Sena çayındakı mərasimlərdə iştirak ediblər. Tamaşaçılar Qəzza zolağındakı münaqişəni xatırlayıblar. İsrailin prezidenti İsaak Hersoq da öz xalqına dəstək olmaq üçün Parisdə keçiriləcək mərasimə gəlib.

"Siyasətdən kənar idman" prinsipini həmişə tez müdafiə edən BOK indi qarşıdakı iki həftə ərzində siyasi baxışların hər hansı nümayişini (Fələstin bayraqlarının dalğalanması, İsrail nümayəndə heyətinə söyüş söyməsi və s.) yatırtmaqla məşğuldur. Cümə günü açılış mərasimində, yarışların keçirildiyi yerlərdə və təşkilatçıların münaqişəli dövlətlərdən nümayəndə heyətlərini diqqətlə ayırdığı Olimpiya kəndində görünməmiş tədbirlər planlaşdırılır.

İsrail idmançıları yarış boyu ən yaxşı müdafiə ilə təmin olunacaqlar: 1972-ci ildə Münhen Oyunları zamanı İsrail komandasının üzvlərinin Fələstinin Qara Sentyabr qrupunun nümayəndələri tərəfindən girov götürülməsi və sonra öldürülməsi faciəsini dünya hələ də xatırlayır.

2024-cü ilin gərgin reallıqlarını nəzərə alsaq, Olimpiya barışığı həmişəkindən daha nisbi bir anlayış kimi görünür. Qədim Oyunların tarixində bu, hücum təhlükəsi olmadan səyahət etmək qabiliyyətini nəzərdə tuturdu. Qərb mediası belə şərh edir ki, yaxın tarixdə o, Rusiya tərəfindən üç dəfə pozulub: 2008-ci ildə (Gürcüstandakı münaqişə), 2014-cü ildə (Krımın ilhaqı) və 2022-ci ildə (Ukraynada hərbi əməliyyatın başlaması). BOK isə rəsmi olaraq yalnız birini tanıyır: 2022-ci ilin fevralında baş verənləri.

Tarixçi Fabien Archambault izah edir: "Olimpiya atəşkəsi üçün təcili çağırışlar nisbətən yeni bir hadisədir. Bu, BOK-un həvəskar idman konsepsiyasından imtina edərək Oyunların kommersiyalaşdırılmasının ikinci, daha intensiv mərhələsinə başladığı 1980-ci illərə təsadüf edir".

"Olimpiya barışığı ideyası BOK-un kommunikasiya strategiyasının bir hissəsidir" deyə tarixçi Patrick Clastres əlavə edir. Lakin burada Tomas Baxın rəhbəri olduğu BOK öz tələsinə düşüb. Bir tərəfdən, BOK özünü neytral arbitr, hər kəsin ümid bağladığı əxlaqi səlahiyyət kimi təqdim edir, digər tərəfdən isə komitənin fəaliyyət sahəsi ölkələr arasında rəqabətlə bağlı olduğundan bütün ideologiyalar da orada təmsil olunur. Sülhsevər ritorika ilə dünya reallığı arasındakı uçurum həm Olimpiya Oyunlarının dramı, həm də diqqəti cəlb edən amildir.

Açılış mərasimi mühüm simvolik rol oynayır. Tarixçi Patrick Boucheron Le Monde-a verdiyi müsahibədə "Fransaya dünyanı, dünyanı isə Fransaya göstərməli", deyib. Amma onun heç bir lazımsız illüziyası yoxdur: "Hər Olimpiya Oyunlarında biz xalqlar arasında qardaşlıqdan danışırıq və nəticədə medalları sayırıq", – tarixçi aprelin 25-də oyunların təşkilatçılarının mətbuat konfransında bunu etiraf edib.

Bu arada qeyd edək ki, Fransa nümayəndə heyətinin 571 idmançısından 80-nin ölkənin silahlı qüvvələri ilə müqaviləsi var, 15-i isə sərhəd xidmətinin işçisi kimi qeyd olunub. Unutmayaq ki, Fransa Olimpiya Oyunlarına tamamilə yeni beynəlxalq siyasi kontekstdə ev sahibliyi edir. Emmanuel Makron sözsüz ki, ölkəni ən yüksək səviyyədə təmsil etmək istəyir. İyulun 22-də paytaxtın kənarındakı Olimpiya kəndini ziyarət etdikdən sonra Makron "Biz hazırıq" deyib. Yelisey sarayının sahibi həmkarları ilə daha çox ikitərəfli danışıqlar aparmaq üçün Olimpiadadan istifadə etmək niyyətindədir. Bəzi görüşlər hətta açılış mərasimindən əvvəl də keçiriləcək: xüsusən iyulun 25-də Luvrda idmanın davamlı inkişaf məqsədlərinə nail olunmasına töhfəsinə həsr olunmuş sammit çərçivəsində.

Olimpiya atəşkəsi olmadığı halda, dövlət başçısı Milli Assambleyanı (ölkə parlamentini) buraxmaq və yeni seçkilər keçirmək qərarı ilə yaranan iki aylıq qarışıqlıqdan sonra bir anlıq sakitliyi təmin etmək üçün Fransada "siyasi barışıq" elan edib. Bəs bütün dünyada necə, məsələn, Cənubi Qafqazda böyük müharibəyə hazırlıq dayanacaqmı. Makron özündə olimpiya ölkəsinin, sülh ölkəsinin lideri olduğu cəsarətini tapacaqmı? Əsla, onda bu cəsarət yoxdur və heç vaxt da olmayıb.

**V.VƏLİYEV**





# Yeməyin, yedirtməyin: öldürür!

***Uşaqların və gənclərin çox sevdiyi, zərərini bildiyi halda imtina edə bilməyən insanların sevimli qidası olan çipslərin insan orqanizminə zərərləri barədə çox yazılır, təhlükəsi barədə həyəcan siqnalları verilir, amma satış faizi azalmır, əksinə istehlakçı hər gün daha çox tələb edir. Alzeymerdən parkinsona, xərçəngdən infarkta hər cür xəstəliyə səbəb olan çipslər barədə bu yazımızda...***





### Siqaret qədər təhlükəli

Çipsilər – bizim dillə desək, guya qurudulmuş kartof dilimləri maddələr mübadiləsini pozaraq inanılmaz xəstəliklərin təməlini qoyur. Təhlükəsi o qədər böyükdür ki, hətta dünyada sağlamlıq təşkilatları çipsilərin üzərində eynilə siqaretdəki kimi "sağlamlıq üçün zərərlidir" ifadəsini yazmağı tələb edilər. Həkimlər bu qida adı altında gizlənən zəhərin piylənmə, xərçəng, şəkərli diabet, alzeymer kimi bir çox xəstəliyə səbəb olduğunu deyirlər.

Çipsilər həm tərkibindəki kalori, həm zəhərli yağlar, həm də dadlandırmaq üçün istifadə edilən kimyəvi qatqılar səbəbindən təhlükə yaradır. Çipsilərin tərkibində akrilamidin adlı kimyəvi maddənin olduğunu bilirsinizmi? Bu maddə plastik sənayesində istifadə edilən, eyni zamanda siqaretin tərkibində olan maddədir və xərçəngə səbəb olması artıq araşdırmalarla təsdiq edilib.

Bu maddə çipsilərdən əlavə süni uşaq qidalarında, uşaqlar üçün istehsal edilən peçenyelərdə, qovrulmuş satılan çərəzlərdə də aşkar edilib. Hazırlanarkən tərkibinə bol miqdarda transgen yağın hopması çipsinin başqa bir zərərli tərəfidir. Trans yağların şəkərli diabetə, xroniki ürək xəstəliklərinə, xərçəng və digər bədxassəli şişlərin yaranmasına, habelə piylənməyə səbəb olması isə elmə çoxdan məlumdur.

Bundan əlavə araşdırmalara görə trans yağlar sonsuzluq, qaraciyər yetməzliyi, alzeymer və parkinson kimi xəstəliklərə səbəb olur. Bu yağlar qandakı yağ nisbətini yüksəldərək insan orqanizmini təhlükəyə atır, eyni zamanda xolestrolu yüksəldir.

### Uşaqlar ildə 9 litr trans yağ içir

Çipsilərdəki yağ kalori nisbətini ifrat dərəcədə keçmiş vəziyyətdədir. Araşdırmalara görə, çipsi yeyən uşaqlar ildə orta hesabla 9 kilo yağ qəbul edir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə isə yetkin insan gün ərzində 6 qram duz, 65 qram yağ qəbul edə bilər. Gündə 1 paket çips yeyən uşaq bu həddi aşmış olur, üstəlik digər qidalardan qəbul edilən yağlar da var.

İstehlakçıya təqdim edilən çipsilərin üzərində tərkibində hansı nisbətdə və hansı yağın olması barədə məlumat verilmir. İngiltərə Ürək Cəmiyyətinin araşdırmalarına görə, 100 qramlıq kartof çipsində doymuş yağ nisbəti 10, trans yağ nisbəti isə 3 qrama qədərdir. Ümumilikdə bir paket çipsin tərkibindəki yağ nisbəti 70 qramı keçir. Bu isə uşaqların yetkin insanın normasından da çox yağ qəbul etməsi deməkdir.

Çipsin tərkibində damarı sərtləşdirən yağlar olduğu üçün tromplar yaradaraq qan axımını zəiflədir, damar tıxanır və nəticədə ürəyə qan işləmir. Gözlənən məlum sonluq isə infarkt olur. Amerikanın Kaliforniya Universitetinin bir araşdırmasına görə, doymuş yağ istehlakı gündə 20 qrama çatdığı zaman piylənmə riski 80, ürək xəstəlikləri riski isə 60 faizə çatır.

### Beyni asılı vəziyyətə salır

Çipsi bazarının böyük hissəsinə sahib olan Amerika firmaları dünyada hər il 36 milyard paket çips satır. Diqqət etsəniz görərsiniz ki, çipsi markalarının 90 faizinin adında "S" hərfi var. Psixoloqlar deyir "S" hərfi aclıq hissini gücləndirir. Ağzınıza bir cips qoyduğunuz anda ilk olaraq duz hiss edirsiniz, bu, xoşunuza gəlir, tərkibindəki kimyəvi dadlandırıcılar "trigeminal" deyilən sinir hüceyrələri vasitəsilə beyinə mesaj göndərir. Beləcə çipsi daha çox yemək istəyirik.

Araşdırmalara görə, ananın hamiləlik və laktasiya dövründə çipsi qəbul etməsi körpənin sağlamlığına ciddi zərər vurur. Trans yağların, kimyəvi dadlandırıcıların, duzun miqdarı yüksək olduğu üçün körpə həyatının ilk aylarından artıq çəki ilə üzləşir.

O cümlədən, beyin funksiyalarına şəkər, doymuş yağ, pizza və digər xəmirli qidalar, aşağı karbohidratlı pəhrizlər, duzlu və qızardılmış yeməklər də zərər vurur.

Harvardda aparılan araşdırmalar haqqında məlumatda çipsinin tərkibindəki doymuş yağ nisbətinin beyin funksiyalarına zərər verdiyi göstərilir. Zeytun yağı, avokado yağı kimi sağlam yağlarla qidalananların yaddaşında isə güclənmə olduğu bildirilir.

Beynin inkişafını doğru təmin etməsi üçün uşaqların inkişaf dövrlərində onların qidalanmalarına xüsusi diqqət verilməli, çipsi, pizza və digər xəmirdən hazırlanan və artıq çəkiyə səbəb olan fast-food yeməklərindən uzaq durulmalıdır. Tələbatı ev üsulu alternativlərlə ödəmək daha doğru seçim olardı. Bədənin karbohidrata ehtiyacı olduğundan beyin funksiyalarının səmərəli işləməsi üçün bu lazımdır. Bütün karbohidratlar zərərli hesab olunmur. Hər hansı kafedə orta ölçülü bir pizzaya 15-20 AZN ödəməklə qəbul etdiyimiz doymuş, trans yağların orqanizmimizə vurduğu zərər pulla hesablana bilməz. Buna görə də bu ehtiyacınızı ev üsulu, ekoloji təmiz pizza ilə ödəyə bilərsiniz.

### Çipsini kola ilə birlikdə qəbul etmək intihardır

Ətrafımızda bir əlində çips, bir əlində kola şüşəsi olan kifayət qədər çox gənc görürük. İkisini birlikdə qəbul etməyi intihar hesab edən ingilis mütəxəssislər qadınların 33, kişilərin isə 40 faizindən artıq hissəsinin artıq çəkili olmasına bu asılılığın səbəb olduğunu düşünür. Araşdırmalara görə, bu piylənmənin 90 faizi kola-çipsi ikilisindən qaynaqlanır. Elə bu səbəbdən də bu ölkədə 2006-cı ildən məktəblərdə kola, çipsi kimi zərərli məhsullar satılmır. Məlumat üçün qeyd edək ki, Azərbaycanda orta məktəblərdə bu məhsulların satışına 2013-cü ildə qadağa qoyulub.

Amerikada əsgərlərə axşam saatlarında kola və çips qadağan edilib, çünki hər iki məhsul beyin hüceyrələrinin fəaliyyətini məhdudlaşdırır, hərbçilərin hərbi əməliyyatlarda uğursuz olmasına, məşqlərdəki tənbəlliyinə səbəb olur.

Qlobal kapitalizmin qazanc üçün istehsal etdiyi hər məhsul insanı ölümə və xəstəliyə doğru sürükləyir. Daha kobud və açıq dillə ifadə etsək, onlar bizim pulumuzla bizə zəhər yedirirlər. Bu təhlükəli məhsullardan imtina etməklə həm özünüzü, həm də doğmalarınızı onların qanlı caynağından xilas edə bilərsiniz.

***Lalə Mehralı***

TƏHLİL

***Bu gün birmənalı mövqe ondan ibarətdir ki, Azərbaycan dünyada ən azad, demokratik dövlət olaraq tanınır və qəbul edilir. Bunun kökündə dayan əsas amil hüquqi islahatlarınm aparılması, insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəmin verilməsi, insanların daha firavan və təhlükəsiz yaşamasına dəstək göstərilməsi, bu istiqamət də mütərəqqi qanunların qəbul edilməsi, Prezident Sərəncamlarının, Fərmanlarının imzalanmasıdır. Hələ 1996-cı ildə qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə Hüquqi İslahat Komissiyası yaradılır.***

Bu Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatların prioritetlərini müəyyən edir və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirir. Sonrakı mərhələ də aparılan sistemli və ardıcıl işlər nəticəsində Komissiya qarşısına qoyduğu bütün məqsədlərə nail ola bildi. Yüksək uğurların, qaneedici hüquqi nəticələrin əldə olunmasında 1918-ci ilin mayında qurulan və 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin məhkəmə-hüquqi sistemində yol verdiyi səhvlərinin araşdırılması və yeni qanunvericilik bazasının hazırlanmasında müasir dövrün yeniliklərinin nəzərə alınması xüsusi rol oynamışdır. Məlum faktdır ki. AXC-nin süquta uğramasını şərtləndirən əsas amillər Azərbaycan 1990-cı ilin əvvəllərində qazandığı müstəqilliyi dövründə təkrarlamaqla növbəti fəlakətlə üzləşmək ərəfəsində olmuşdur. Səbəbdə liderin olmaması ilə bağlı idi. 1992-ci ildə iqtidara gələn AXC-Müsavat cütlüyü hakimiyyətdə qaldığı bir il ərzində ölkəni uçuruma sürüklədi. Yanlış siyasətin aparılmasının nəticəsi olaraq ölkəmizdə anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Qanunsuz silahlı dəstələr, quldur dəstələri meydan sulayırdılar. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, ölkə parçalanırdı. Dövlət müstəqilliyinin itirilməsi, vətəndaş müharibəsinin qaçılmaz olduğu bir vaxtda ölkə ziyalıları bir araya gələrək Ulu Öndər Heydər Əliyevin Bakı şəhərinə gəlib hakimiyyət sükanı arxasına keçməsi çağırışını etdilər. Bununla bağlı 1992-ci ilin aktyabrın 16-da "91" lərin Dahi Öndər Heydər Əliyevə müraciəti ünvanlandı. Ulu Öndər Heydər Əliyev xalqın çağırışına 1992-ci il oktyabrın 24-də ziyalıların müraciətinə cavab verməklə münasibət bildirdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Bakıya gəldi, ölkəmizi xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etmək üçün gərgin fəaliyyətə başladı. Qısa müddətdə siyasi sabitliyə, iqtisadi dirçəlişə nail olundu. Bütün sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Dahi Öndərimiz Heydər Əliyev mütərəqqi addımlar atdı, qərar və fərmanlar imzaladı. Milli sərvətimiz olan yeni konstitusiyanın qəbul edilməsi xalqımıza əvəzsiz xəzinə bəxş etmiş oldu. Müstəqil Azərbaycanımızın ilk Konstitusiyası Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi.




# İşğaldan azad edilən ərazilərdə hüququn aliliyi təmin edilir

## *Xankəndi şəhərində prokurorluğun inzibati binasının açılışı və prokuror təyinatı tarixi zəfərin davamıdır*

### Sayca 5-ci və mükəmməl Konstitusiya

1995-ci il noyabrın 27-də qüvvəyə minən bu qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin beşinci Konstitusiyası idi. Təəssüflər olsun ki, 1918-ci ildə qurulan və cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyətinin Əsas Qanununu qəbul edilməmişdir. Sadəcə AXC parlamentin qəbul etdiyi qanunlarla idarə edilmişdir. Birinci Ana Yasa Azərbaycanın SSRİ-nin tərkibinə daxil olduqdan sonra Rusiyanın qanunları əsasında 1921-ci il mayın 19-da hazırlanaraq qəbul edilmişdir. Azərbaycanın sayca ikinci konstitusiyası 1927-ci ilin mart ayında qəbul edilmişdir. O zaman Azərbaycan ittifaqın tərkibində idi. 1936-cı ildə SSRİ-nin yeni əsas qanunu qəbul edildikdən sonra ona müvafiq olaraq, 1937-ci ildə Azərbaycanın sayca üçüncü konstitusiyası qəbul olundu. Azərbaycan SSR-in sayca dördüncü konstitusiyası 1978-ci ildə qəbul edildi. Bu konstitusiyanın hazırlanması və qəbulu Ulu Öndər Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdir. Dahi Öndərimizin təkidi ilə 1978-ci il konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu əks olundu. Konstitusiyada Azərbaycan dilinin dövlət dili elan olunması haqqında 73-cü maddə qəbul olundu . O vaxta qədər SSRİ məkanında rus dili hökmran dil kimi təbliğ edilirdi. Belə bir şəraitdə, yalnız Ulu Öndər Heydər Əliyevin yenilməz iradəsi sayəsində 73-cü maddənin qəbulu mümkün olmuşdur. Dahi Öndərimiz Heydər Əliyev ikinci dəfə hakimiyyət gəlişindən sonra da xalqın və dövlətin maraqlarını hər şeydədə üstün tutmağı bacarmışdır. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi istiqamətində atılan addımlardan başlıcası Azərbaycanda ölüm hökmünün ləğv edilməsi olmuşdur. Ulu Öndər dəfələrlə ölüm hökmünün ləğv edilməsinin vacibliyinin bildirmiş və qanunda dəyişikliyin edilməsinin vacibliyini qeyd etmişdir. Bildirmişdir ki, ölüm cəzasının mövcud olması və tətbiqi insan ləyaqətinə zidd hesab edilir: "İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan ölüm cəzasının tətbiqi, hansı dəlillərə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insan və amansız tədbir kimi qiymətləndirilir". Beləliklə mhz Dahi Öndərin təşəbbüsü ilə Milli Məclis 1998 - ci il fevralın 10 - da Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi barədə qanun qəbul etmişdir. Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut edir. Bununla bağlı Ulu Öndərimiz Heydər Əliyevin insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında 22 fevral 1998-ci ildə imzaladığı Fərmanında qeyd olunur ki, Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Azad, demokratik dövlətlərindən olan Azərbaycanda insan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu, Seçki Məcəlləsi, "Sərbəst toplaşmaq azadlığı haqqında", "Siyasi partiyalar haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Dini etiqad azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında", "Gender bərabərliyinin təminatları haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və digər qanunlar qəbul edilib. Aparılan islahatlar, həyata keçirilən işlər insanların daha yaxşı və firavan yaşamsına hesablanıb. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

### Bu günə qədər Əfv Sərəncamı ilə minlərlə insan azadlığa qovuşub

1995-ci ildən bu günə qədər Azərbaycanda 64 əfv sərəncamı imzalanıb. Əfv sərəncamları ilə ümumilikdə 7542 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.2017-ci ildə qəbul edilən Amnistiya aktı ilə 11 min nəfərə şamil olunub. Bu yaxınlarda ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ulu Öndərimiz Heydər Əliyevin 100 illiyi ilə əlaqədar daha yüzlərlə məhbus əfv edilərək azadlığa qovuşdu. Humanistlik və xeyirxahlıq Prezident İlham Əliyevin bu istiqamətdə düzgün və məqsədyönlü siyasət aparmasının müsbət bəhrəsidir. Ulu Öndər hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur. Ulu Öndərimiz ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamışdır. İnsan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası həmin sənədlə müəyyən edildi və ümumdövlət səviyyəsinə qaldırıldı. Belə islahatların məntiqi davamı olaraq dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Ümummilli Lider Heydər Əliyevin strategiyasına sadiq olan Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir.

Təbii ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla aparılan bu siyasət bundan sonrada davam etdiriləcək. Bu isə onu deməyə əsas verir ki, güclü və qüdrətli Azərbaycanın bu günü kimi sabahı da işıqlı və parlaq olacaq. Xüsusi ilə də işğaldan azad dilən ərazilərimizdə quruculuq, abadlıq işləri fonunda insanların öz doğma yurdlarına qayıtması ilə paralel hüquq-mühafizə orqanlarının yerli təmsilçiliklərinin yaradılması dövlətin bu sahənin bütün ölkə ərazisində bərqərar olmasını təmin etdiyini deməyə əsas verir. Artıq işğaldan azad edilən bütün şəhər və qəsəbələr də Daxili İşlər Nazirliyinin yerli bölmələri yaradılıb, Eyni zaman da rayonlara və şəhərlərə prokurorlar təyin edilib. Fateh Sərkərdə, ölkə Prezidentinin Sərəncamı ilə Xankəndi Şəhər Prokurorluğu yaradılıb və şəhər prokuroru təyin edilib. Xankəndi şəhərində prokurorluğun inzibati binasının açılış mərasimi də keçirilib və açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib. Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin, digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları qatılıb. Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev çıxış zamanı Azərbaycan xalqının bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşadığını söyləyib: "Ümummilli Lider Heydər Əliyev, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdikləri daimi diqqət və qayğı hər zaman hiss olunub. Ölkə Prezidentinin cari ilin 24 may tarixli Sərəncamı ilə Xankəndi şəhər prokurorluğunun təsis edilməsi və qısa müddətdə qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə digər maddi-texniki təminatı məsələlərinin həlli bunun göstəricisidir". İnzibati binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib. Aparılan hüquqi islahatlar Azərbaycanın azad, demokratik məhkəmə-hüquq sisteminin qurulmasına və insanlara daha mükəmməl xidmət göstərməsinə hesablanır. Söz yox ki, bu siyasət ardıcıl və davamlı xarakter daşıyacaq. Çünki biz azad, demokratik ölkənin qürurlu vətəndaşlarıyıq.

***İLHAM ƏLİYEV***

# “Qərb Qafqazı təhlükəli geosiyasi dəyişikliklərə sövq edir”

***Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov “Moskva-Baku” portalına müsahibəsində Qərbin Cənubi Qafqazda təhlükəli ssenariləri haqqında danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Andrey Vladimiroviç, yenə də Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı suallar var. Ermənistanın baş naziri bir müddət əvvəl Britaniyada Azərbaycan prezidenti ilə görüşməkdən imtina edib. İndi o, uzunmüddətli məzuniyyətdədir. Onun sülh danışıqlarının bir növ dəfn edilməsinə qərar verdiyi hissi varmı?**

- Son bir ay ərzində Azərbaycanla Ermənistan arasında sülhün perspektivlərindən, Ermənistan-Rusiya münasibətlərinin gələcəyindən və Cənubi Qafqazdakı bütün vəziyyətdən danışmağa dəyəcək bir çox mühüm hadisələr baş verib. Bunlardan biri Ermənistanın baş nazirinin NATO və Avropa Siyasi Birliyinin sammitlərində iştirakıdır ki, bu sammitlərdə təkcə onlar üçün deyil, baş nazir üçün də fəal və mühüm təmaslar baş verir və Ermənistanın gələcək siyasətinin necə həyata keçiriləcəyi göstərilir. Və bu əlaqələr yalnız onu seçdiyi kursun düzgünlüyünə əmin etmək üçündür. İndi Paşinyan üçün Azərbaycanla sülh prosesi ilə bağlı vəziyyəti dayandırmaq çox vacibdir. O, taktiki gözləmə fasiləsi verdi. İndi elə bir vəziyyət yaranıb ki, istər daxili siyasət baxımından, istərsə də xarici siyasət baxımından tələsmək olmaz.

O, görməlidir ki, Avro-Atlantik inteqrasiya deyilən şeyə doğru nə qədər sürətlə irəliləyə bilər. Və bu, yəqin, avqustun sonunda məlum olacaq, çünki o vaxt bir neçə mühüm Avropa görüşü baş tutacaq. Fransa prezidenti də görünür, ondan Olimpiada bitənə qədər gözləməsini istəyib. Bu, avqustun 11-də başa çatacaq. Və Makron indi Cənubi Qafqaz cəbhəsində Ermənistanın xeyrinə əsas oyunçudur.

Paşinyan çox böyük stavkalar etdiyi üçün gözləyir. Qərb ona çox şey vəd etmişdi. Onun Aİ, ABŞ, NATO ilə etdiyi söhbətlər indiki məqamdan deyil, gələcəklə bağlı söhbətlər idi. Perspektiv isə fasilə tələb edir. İstisna etmirəm ki, Nikol Paşinyan uzunmüddətli məzuniyyətdən qayıtdıqdan sonra Ermənistanın Qərbə istiqamətli kursu ilə bağlı referendum elan edə bilər. Başa düşdüyüm qədər, Fransa da Ermənistanda referendumun keçirilməsinin əsas dəstəkçisi olacaq və onun təşkilinə kömək edəcək.

Ona görə də Ermənistanın baş naziri Britaniyada İlham Əliyevlə görüşdən imtina edib. O, buna getmək istəmirdi, çünki o zaman nəsə söz verməli olacaqdı. Azərbaycan prezidenti ilə görüş Azərbaycan liderinin Paşinyana suallar verəcəyi, sülh razılaşmasına məcbur edilməsi, Ermənistanın konstitusiyasını dəyişdirməsi, ATƏT-in Minsk Qrupunun rəsmən ləğvi və s. Amma indi Paşinyana bu lazım deyil.

**- Deyirsiniz ki, Qərb Ermənistana çox şey söz verib. Tam olaraq nələr?**

- Ermənistana xarici siyasət kursunu dəyişməyi təklif edirlər. Bunun müqabilində ciddi maliyyə dəstəyi, Aİ ilə vizasız rejimin tətbiqi imkanları, investisiya layihələri, təhlükəsizlik və hərbi sahədə dəstək vəd edirlər. Ermənistana Gümrüdəki Rusiya hərbi bazasını bağlayacağı təqdirdə ABŞ-dan böyük pul vəd ediblər. Söhbət həqiqətən ciddi puldan gedir. Ermənistanın baş nazirinə isə bunu təkcə bir dəfə deyil, uzunmüddətli əsaslarla vəd edirlər.

**- Bəs Aİ-yə namizədlik?**

- Mən deyərdim ki, Aİ-yə namizədlik vizasız rejim əldə etmək qədər vacib deyil. Məsələn, Avropa İttifaqının Gürcüstanla vizasız rejimi ləğv etməsi ölkədə yeni sarsıntılar üçün əlavə tətik ola bilər. Ermənistan üçün də eynilə: Aİ-yə üzvlük hələ çox uzaq bir şeydir. Bunu hamı başa düşür. Ermənistan vətəndaşlarının Aİ ölkələrinə vizasız giriş imkanı isə təmasları sadələşdirməyə, işgüzar əlaqələri və respublika üçün vacib olan digər prosesləri intensivləşdirməyə kömək edəcək.

Paşinyan üçün kifayət qədər ciddi problem eyni vaxtda iki stulda (Qərb və Rusiya) necə oturmaqdır. İqtisadi komponentə görə Rusiyadan imtina edə bilməz. KTMT mövzusuna da nöqtə qoyula bilər, burada nə isə danışmaq belə faydasızdır, İrəvan üçün isə bu, qapalı məsələdir. Amma Aİİ-yə üzvlükdən gələn bonuslar Ermənistan üçün ciddidir. Ermənistanın baş naziri ölkənin Avrasiya İqtisadi İttifaqına üzvlüyünü saxlamaq istəyir. Üstəlik, Ermənistanı ondan kənarlaşdırmaq mümkün deyil. O, yalnız özü çıxa bilər. Amma özü də bu ittifaqdan çıxmaq istəməz.

Ermənistanın baş naziri tamamilə hər şeyi hesablayır. Onu sadəlövh hesab edən adamlar yanılır. Yumşaq desək, o sadəlikdən uzaqdır. Və bu gün o, pendir parçasının harasında ən az deşik olacağını anlamağa çalışır.

**- Bütün bunlar Qərbə və İrəvana niyə lazımdır?**

- Gürcüstanda oktyabrda keçiriləcək parlament seçkilərindən sonra potensial hakimiyyət dəyişikliyi ilə (buna hazırlıq gedir) və Ermənistanda hökumətin onlarla birləşməsi nəticəsində bu və ya digər dərəcədə amerikalılar, avropalılar və NATO bölgəni öz nəzarəti altına ala bilər. Və bu birlik Azərbaycan ətrafındakı olacaq. Bu halda o, çətin vəziyyətə düşəcək. Əgər Ermənistan və Gürcüstanın siyasəti birmənalı olaraq Qərbə, NATO ilə yaxınlaşmağa doğru getsə, o zaman Azərbaycan üçün də, Rusiya üçün də təbii olaraq çətinliklər yaranacaq. Və bu, Qərb üçün çox dəyərlidir, bu, böyük strateji qələbədir, düşünürlər ki, buna nail olmaq üçün böyük maliyyə sərmayələri qoymağa dəyər.

Mən artıq bir neçə dəfə demişəm ki, Rusiya hələ də Cənubi Qafqazla maraqlanmır. Moskvada Paşinyanla münasibətlərlə bağlı sonsuz müzakirələrə getməyəcəklər. Ona görə də Bakı ilə İrəvan arasında sülhə ümid etmək kifayət qədər çətindir. Cənubi Qafqazda siyasi proseslərin gedişatının perspektivləri baxımından çox mühüm, əlamətdar hadisə həqiqətən də Gürcüstanda keçiriləcək seçkilər və onların necə başa çatacağı olacaq. Və əgər Qərb Gürcüstandakı seçkilərdə uğur qazansa, Gürcüstan-Ermənistan əlaqəsi tamam başqa geosiyasi təsir əldə edəcək.

**- Əgər ABŞ-da Tramp prezident seçilərsə, Cənubi Qafqazdakı situasiya daha əlverişli istiqamətdə dəyişə bilərmi?**

- Baydenin prezidentlik yarışından geri çəkilməsindən sonra Trampın qələbəsi indi çətinləşir. Kamala Harris onun göstərdiyi kimi axmaq deyil. Əhalinin müxtəlif kateqoriyalarından dəstək alır. Trampdan fərqli olaraq o, çox mobildir və indi hər yerə səyahət edəcək. Ona görə də Trampın yenidən prezident olub-olmayacağı bu gün böyük sualdır. İki həftə əvvəl hər şeyin, onun qələbəsinin təmin olunduğu görünürdüsə, indi vəziyyət dəyişib. Çox güman ki, Trampla Harris son ana qədər təxminən bərabər reytinqdə gedəcək və hər şey sonda kiçik fərqlə həll olunacaq.

Amma Tramp prezident olsa belə, Ermənistan mövzusundan yan keçə bilməyəcək. ABŞ-dakı erməni lobbisi çox güclü və effektivdir. Ümumiyyətlə, ABŞ üçün bugünkü Ermənistan siyasəti təbii olaraq qazanma cəhdlərinə bənzəyir. Ermənistan Rusiya ilə dalaşır, Rusiyanı tərk edir, gəlin onun əlini gücləndirək, deyirlər. Niyə onu hətta Trampın dövründə də dəyişdirsinlər?

**- Azərbaycan Prezidenti getdikcə Qərbi- həm ABŞ-ı, həm də Aİ-ni sərt tənqid etməkdə davam edir. İlham Əliyev açıq şəkildə bildirdi ki, Bakı Amerikanın hazırkı administrasiyasının Azərbaycanla münasibətlərdə yürütdüyü siyasətdən razı deyil. O, eyham vurub ki, ştatlarda respublikaçıların, xüsusən də Trampın dövründə siyasət Bakıya münasibətdə daha yaxşı, daha konstruktiv və bütövlükdə yaxşı olub.**

- Əliyev mahiyyət etibarı ilə Trampın namizədliyinin Azərbaycan üçün daha üstün olduğunu açıq şəkildə bildirdi və onu bu və ya digər dərəcədə müsbət qiymətləndirdi. Amma çoxları Trampı tərifləyir. Problem ondadır ki, bu gün danışan ABŞ-ın eks-prezidenti sabah danışacaq Tramp deyil. Trampla da asan deyil. Bu, çox səhv edə bilən bir insandır. Amma Kamala Harris seçilərsə, bu, Azərbaycan üçün pis variant olacaq.

Azərbaycan Prezidenti son dərəcə məlumatlı insandır, ağıllı, incə siyasətçidir, arabanın hara getdiyini yaxşı anlayır. O, bütün cari tendensiyaları mükəmməl görür və başa düşür. O, bu cərəyanların Azərbaycan üçün nəticələrini mükəmməl başa düşür. Ona görə də o, Qərbə- ABŞ-a, Aİ-yə qarşı tənqidləri artırmaqla Qərbə doğru proaktiv siyasi addımlar atır. Əgər arabanı dayandıra bilmirsənsə, heç olmasa bu arabanın yoluna bir maneə qoymalısan. Azərbaycan prezidenti ardıcıl olaraq Qərbin tənqidi ilə məşğul olur. O, indiki məqamı düşünmür, Azərbaycanın gələcəyini düşünür və sözün əsl mənasında bir ildən sonra, ondan sonar da Qərbin Cənubi Qafqaza diqqət yetirməsi ilə bağlı yarana biləcək bütün problemləri anlayır. Əgər ifrata vararsa, Azərbaycan tezliklə regionda kifayət qədər aktiv şəkildə baş verə biləcək bir çox proseslərə lazımi təsir göstərə bilməyəcək. Eynilə Qərbdən Ermənistana edilən yardıma görə. Ona görə də Bakı indi bu “kündələri” Qərbin qarşısına düzür, arabanın aşacağını göstərir. Eyni zamanda, İlham Əliyev də çox gözəl başa düşür ki, Qərblə tam çəkişmək sərfəli deyil.

Niyə əvvəllər Azərbaycan hakimiyyəti tərəfindən ABŞ-ın ünvanına bu qədər tənqid olunmurdu, halbuki rəsmi Bakının özünə görə, ABŞ və Qərbin təzyiqləri və sanksiyaları mahiyyət etibarilə ikitərəfli münasibətlərin lap əvvəlindən- hələ 90-cı illərdən başlayıb. Və bu gün Azərbaycandan tənqidlər getdikcə güclənir, çünki biz Cənubi Qafqazda geosiyasi vəziyyətdə mümkün radikal dəyişikliyə yaxınlaşırıq. Əliyev isə kənarda dayana bilmir və sadəcə olaraq susa bilmir. Allah onu qorusun. Biz köklü geosiyasi dəyişiklikdən, Ermənistanın əvvəllər mövcud olan bütün razılaşmalardan çıxmasından, Ermənistanın Rusiyadan aralanmasından, Qərbin bölgəyə gəlişindən danışanda- bu Əliyev üçün böyük çağırışlardır.



**- Həm Rusiya, həm Azərbaycan, həm də bir çox başqa dövlətlər çoxqütblü, ədalətli dünyanın inkişafı irəli sürürlər. Biz Qlobal Cənub ölkələri ilə yaxınlaşma ideyasını inkişaf etdiririk, bu əsasda BRİKS və ŞƏT-i gücləndirməyə və inkişaf etdirməyə çalışırıq. Bunun həqiqətən Qərb təsiri ideyasına qarşı işləməyə başlaması nə qədər vaxt aparacaq?**

- Obyektiv olaraq bu, çoxlu vaxt və bir çox sahələrində əməkdaşlığın inkişafını tələb edirk. Mənim fikrim qeyri-populyardır, amma mən ona sadiq qalıram: çoxqütblü dünya qurmaq üçün çox problemlər olacaq. Çoxqütblü dünya gözəl və yaxşıdır. Amma layihə ləng gedir. Bundan əlavə, Qlobal Cənub obyektiv olaraq birləşə bilməz. Oyunçular arasında, məsələn, Çin və Hindistan arasında həddindən çox fərq var. BRİKS iqtisadi struktur kimi yaradılmışdır. İndi də onun siyasiləşməsi prosesi başlayır. Tam iqtisadi əməkdaşlıq məsələləri həll olunmadan siyasətlə məşğul olmaq kifayət qədər çətin vəziyyətdir. Beləliklə, mənim fikrimcə, burada kifayət qədər “sualtı daşlar” var. İşləmək lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

# “Ermənistanın yeganə çıxış yolu yalnız sülhdür”

***"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi qələbədən sonra Azərbaycan yenə də humanist addımlar atmaqla Ermənistanı sülhə dəvət edərək, ona düşdüyü acınacaqlı durumdan qurtuluş yolunu göstərməsinə baxmayaraq, Ermənistan bəzi qərb dairələrin ucuz "vəd"lərinə güvənərək bu prosesdən uzaqlaşmağa çalışır". Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib.***



O bildirib ki, Prezident cənab İlham Əliyev müxtəlif bütün çıxışlarında erməniləri çirkin əməllərdən, təxribatlardan yayınmağa çağırmaqla, sülh müqaviləsinin bağlanmasının həm Ermənistan, həm də region üçün əhəmiyyətli olduğunu dəfələrlə vurğulamasına baxmayaraq, Ermənistan rəhbərliyi hər vəchlə sülhdən yayınır Beləliklə, 10 noyabr Bəyanatında üzərinə düşən öhdəlikləri yerinə yetirmir:

”2020-ci ilin 10 noyabr Bəyanatında yer alan şərtlərə əməl olunmasının vacibliyi həm Azərbaycan, həm də Rusiya tərəfindən qeyd olunmasına baxmayaraq Ermənistan tərəfi bu günə qədər əldə olunmuş razılaşmanın şərtlərinə əməl etməyib. Ermənistan təxribatçı mövqeyində qalmaqla bütün hallarda özünü oda atır. 2020-ci ilin sentyabrına qədər Azərbaycan Ermənistana şans verməklə, münaqişəni dinc yolla tənzimləməyə çalışırdı. Lakin Ermənistan Azərbaycanın bu mövqeyini düzgün qiymətləndirə bilmədi və nəticədə 2020-ci ilin payızında olduqca ağır məğlubiyyətə uğradı və Ermənistan ordusu darmadağın edildi. Buna baxmayaraq kapitulyasiya aktı imzalayan Ermənistan təxribatçı mövqeyində qalmaqda davam edir.

Qeyd edək ki, cari ilin 18 iyul tarixində Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə ”Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərədə işgüzar səfərdə olub. Səfər çərçivəsində Prezident İlham Əliyev 12 xarici dövlət və hökumət başçısı ilə görüş keçirib, Zirvə toplantısının açılış və bağlanış plenar sessiyalarında, enerji məsələlərinə həsr olunmuş dəyirmi masada iştirak edib, beynəlxalq əhəmiyyətli tədbirdə Azərbaycan reallıqlarını, rəsmi Bakının siyasi mövqeyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Bu toplantı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi nəzərdə tutulmuşdu. Təbii ki, görüşün təşkil olunması ilə bağlı təşəbbüs Böyük Britaniya tərəfindən olsa da, Ermənistan tərəfi öz məkrli siyasətini bir daha sərgiləyərək bundan imtina edib. Ermənistan daxilində teztez sülh bəyanatları verən, Azərbaycanla ən qısa zamanda sülh sazişini imzalamağa hazır olduğunu bəyan edən N.Paşinyan əsl gerçəklikdə sülhdən, dialoqdan niyə yayınır?

Bu bir faktdır ki, Ermənistan baş naziri Nikol Paşinyan Londonda Prezident cənab İlham Əliyevlə görüşdən imtina etməsi ilə sülh müqaviləsinin imzalanması prosesinə zərər verdi. Ermənistanı cəsarətləndirən ABŞ və Fransa gələcəkdə rəsmi İrəvanın həm Avro-Atlantik məkana, həm də NATO-ya inteqrasiyasına çalışırlar. ABŞ-ın Ermənistan Müdafiə Nazirliyində çalışacaq daimi müşavir təyin etməsi, Aİ-nin mülki missiyasının sərhədə gətirilməsi və s. buna nümunədir. Bütün bunların kontekstində Azərbaycan dəqiq mesajlar verir: Ermənistan sülh müqaviləsini imzalasın, Zəngəzur dəhlizinin açılmasını həyata keçirsin, konstitusiyada dəyişiklik etsin, sərhədlərin tanınması prosesi baş tutsun.

Ölkəmizin sülh sazişi istiqamətində bütün imkanlarını səfərbər etdiyi bir vaxtda qarşı tərəfin bunu gözardı etməsi, bundan əlavə son zamanlar silahlanma istiqamətində müəyyən addımlar atması, bu istiqamətdə də dünya ölkələri ilə razılaşmalar əldə etməsi Ermənistanın özünü necə bir təhlükəli vəziyyətə salmasından xəbər verir. Bu təbii ki, regionun gələcək inkişafı və prespektivlərinə Ermənistan tərəfindən vurulan növbəti zərbə kimi qiymətləndirmək olar.

Ancaq Ermənistan tərəfi bilməlidir ki, onun tərəfindən gələcək hər hansı təxribat, hər hansı bir təhdid Azərbaycan tərəfindən qətiyyətlə alınacaq və adekvat cavab veriləcəkdir. Qərbin bəzi dairələrin ”vəd”lərinə aldanan Ermənistan sülhdən yayınma və silahlanma kimi fəaliyyətləri sərgiləməklə sülh prosesində öz üstünlüyünü nümayiş etdirmək istəsədə bu heç zaman mümkün olmayacaqdır. Çünki qalib tərəf Azərbaycadır və sülh şərtləri qalib Azərbaycan tərəfindən irəli sürülüb və diktə edilir. Əgər rəsmi İrəvan mövcud şəraitdə barışmaq istəməsə ”Dəmir Yumruq”la rastlaşması qaçınılmaz olacaq. Bu da artıq Ermənistanın tamamilə məhv olması ilə nəticələnəcək”.

# Çinin modernləşməsi Çin-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni imkanlar açır

***İyulun 15-dən 18-dək Pekində Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin (ÇKP MK) 20-ci çağırış 3-cü Plenumu uğurla keçirilib. Plenumda Çin modernləşməsinə kömək etmək üçün islahatların daha da hərtərəfli dərinləşdirilməsi məsələsi müzakirə olunub. Plenar iclas milli dövlət quruculuğu prosesinin hərtərəfli inkişafında və Çin modernləşməsi sayəsində millətin dirçəlməsinin əsas mərhələsində keçirilib. Bu, həm də dünya ölkələrinin, o cümlədən Azərbaycanın Çin Xalq Cümhuriyyətinin və Çinin modernləşdirilməsi barədə təsəvvür əldə edə biləcəyi mühüm pəncərədir.***



Plenumda islahatların daha da hərtərəfli dərinləşdirilməsi istiqamətində işlərin görülməsi nəzərdə tutulmuşdu, iclasda “Çin modernləşməsinə kömək etmək üçün islahatların daha da hərtərəfli dərinləşdirilməsi haqqında ÇKP Mərkəzi Komitəsinin qərarı” nəzərdən keçirildi və qəbul edildi. Qərarda Çin modernləşdirilməsinin müxtəlif sahələrini əhatə edən 300-dən çox mühüm islahat tədbirləri nəzərdə tutulub. Plenar iclasda qeyd olunub ki, islahatların hərtərəfli dərinləşdirilməsinin davam etdirilməsinin ümumi məqsədi Çin xüsusiyyətlərinə malik sosialist sistemini daha da təkmilləşdirmək və inkişaf etdirmək, dövlət idarəçiliyi sisteminin və imkanlarının ümumi modernləşdirilməsinə kömək etməkdir. 2035-ci ilə qədər yüksək səviyyəli sosialist bazar iqtisadiyyatı sistemi tam formalaşacaq, Çin xüsusiyyətlərinə malik sosialist sistemi daha mükəmməl olacaq, dövlət idarəçiliyi sisteminin və imkanlarının ümumi modernləşdirilməsi həyata keçiriləcək, sosialist modernləşdirilməsi əsasən başa çatdırılacaq, bu əsrin ortalarına qədər modernləşdirilmiş sosialist dövlətlərinin tam qurulması üçün möhkəm zəmin yaradacaqdır.

Plenumda qeyd olunub ki, şəffaflıq Çin modernləşməsinin diqqətəlayiq xüsusiyyətidir. Çin hökumətin xarici dünyaya açılmaq kimi əsas siyasətinə dönməz şəkildə sadiq qalacaq, şəffaflığı genişləndirməklə, Çinin çox böyük daxili bazarından faydalanmaqla islahatları təşviq etməyə, beynəlxalq əməkdaşlığı genişləndirərkən şəffaflığın həyata keçirilməsi imkanlarını artıracaq və daha yüksək səviyyəli şəffaflığa malik yeni iqtisadi sistemlə quruculuq işlərini davam etdirəcək. Ölkə, həmçinin institusional səviyyədə açıqlığı sistemli şəkildə genişləndirəcək, xarici ticarət sistemində islahatları və xaricdə investisiya fəaliyyətinin idarə edilməsi sistemində islahatları dərinləşdirəcək, regional şəffaflığın arxitekturasını optimallaşdıracaq və “Kəmər və Yol” Təşəbbüsünün yüksək keyfiyyətlə həyata keçirilməsinin təşviqi mexanizmlərini təkmilləşdirəcək.

Plenumda vurğulanıb ki, Çin modernləşməsi dinc inkişaf yolu ilə gedir. Çin müstəqil və sülhsevər xarici siyasətə sadiq qalacaq, bəşəriyyət üçün ortaq gələcəyi olan icmanın qurulmasına kömək edəcək, ümumbəşəri dəyərləri həyata keçirəcək, qlobal inkişaf, qlobal təhlükəsizlik və qlobal sivilizasiya üçün təşəbbüslər həyata keçirəcək, bərabər və nizamlı çoxqütblü dünya düzəninin tərəfdarı olacaq, eləcə də universal və əhatəli iqtisadi qloballaşma, qlobal idarəetmə sisteminin islahatında və inkişafında iştirak edəcək və bu sistemdə aparıcı rol oynamaqla dövlətin suverenliyini, təhlükəsizliyini və inkişaf maraqlarını qətiyyətlə müdafiə edəcək.

Çin və Azərbaycan səmimi, bir-birinə güvənən yaxşı dostlar, bərabərhüquqlu, qarşılıqlı faydaya əsaslanan etibarlı tərəfdaşlardır. Çin başqalarının qayğısına qalmadan modernləşməyə can atmır və Çin modernləşməsinin açdığı inkişaf imkanlarını Azərbaycanla bölüşməyə hazırdır. Azərbaycanın statistikasına əsasən, cari ilin birinci yarısında Çin və Azərbaycan arasında ticarət dövriyyəsi ötən illə müqayisədə 23,9% artaraq 1,638 milyard ABŞ dollarına çatıb. Çin Azərbaycanın ən böyük idxal mənbəyi olmaqda davam edir. Yaşıl enerji, rəqəmsal iqtisadiyyat və qabaqcıl istehsal sənayesi kimi yeni keyfiyyətli məhsuldar qüvvələr Azərbaycanın iqtisadi inkişafına öz töhfəsini verir. Azərbaycan öz unikal coğrafi mövqeyinə və qabaqcıl infrastrukturun üstünlüklərinə əsaslanaraq, öz növbəsində, “Kəmər və Yol” Təşəbbüsünün yüksək keyfiyyətli birgə həyata keçirilməsinin təşviqində mühüm rol oynayır, Avrasiya istehsal və təchizat zəncirlərinin sabitliyinin təmin edilməsinə mühüm töhfə verir.

Bu ilin iyulunda Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev Astanada uğurla ikitərəfli görüş keçirərək, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığa güclü təkan verən Çin-Azərbaycan strateji tərəfdaşlığının yaradılmasını elan etdilər.

İki dövlət başçısının strateji rəhbərliyi altında Çin Azərbaycanla hərtərəfli əməkdaşlığı dərinləşdirmək, “Bir kəmər, bir yol” təşəbbüsünün yüksək keyfiyyətli tikintisinə diqqət yetirmək və Çin-Azərbaycan strateji tərəfdaşlığının sağlam və sabit inkişafını təşviq etmək üçün işləməyə hazırdır. Bu, əlbəttə, hər iki ölkənin xalqlarının xeyrinədir.

***Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili***
***Cənab Ding Tao***



# NATO hər gün parçalanmağa doğru addımlayır

***Gün keçdikcə NATO daxilində ziddiyyətlər artır. Buna səbəb dünyada artan gərginliklərdir. Buna görə də NATO üzvləri arasında fikir ayrılıqları hökm sürür. Buna baxmayaraq, onlar son günlərə qədər Ukraynanın Alyansa daxil olması ilə bağlı həmfikir idilər. Bu gün isə üzvlər Ukraynanın birliyə daxil olması məsələsində belə cəsarətli addımlar ata bilmirlər. Rəsmi Kiyevin Alyansa üzvlüyü hələ müzakirə mövzusu deyil. Yəqin ki, onlar bunun üçün müharibənin başa çatmasını gözləyəcəklər.***




Müttəfiqlər, ümumiyyətlə, müharibə uzandıqca daha çox tərəddüd yaşayırlar. Nəzərə almaq lazımdır ki, Alyansı təşkil edən dövlətlərin maraqları NATO-nun maraqlarına həmişə uyğun gəlmir. ABŞ və Avropa, xüsusən də Ukrayna münaqişəsi ilə bağlı fərqli perspektivlərə malikdir. Verilən bəyanatlara və baş verən hadisələrə görə Vaşinqton artıq Rusiya ilə üz-üzə gəlməkdə maraqlı deyil. ABŞ-ın Ukraynaya dəstəyinin azalması bunun əksidir. Beləliklə, ABŞ və Avropa arasındakı fikir ayrılıqları NATO-nun birliyinə mənfi təsir göstərir.



Bununla belə, NATO-nun iki mühüm tərəfdaşı olan ABŞ və Türkiyə bir neçə regionla bağlı fərqli fikirdədirlər. Cənubi Qafqaz, Yaxın Şərq və Şərqi Avropa bunun ən yaxşı nümunəsidir. Bundan əlavə, Yunanıstan və Türkiyə arasındakı gərgin münasibətlər NATO-nun birliyini təhdid edən məsələlərdəndir. Bununla belə, Rusiya Alyansın varlığından narahatdır. Digər tərəfdən isə Bütün NATO ölkələrinin Moskvaya qarşı mövqeyi eyni deyil. Məsələn, Türkiyə bir digər müttəfiqlərdən fərqli olaraq Rusiya ilə münasibətləri davam etdirməyə çalışır. Bu, o deməkdir ki, Alyansla Rusiya arasında əlaqələr pisləşsə və birbaşa münaqişə başlasa belə Türkiyə ilə Rusiya arasında toqquşma olmayacaq. Məsələn keçən həftələrdə Macarsıntanın Rusiya əleyhinə olan heç bir əməliyyata qatılmayacağını NATO-nun da buna hörmət edəcəyi ilə bağlı açıqlamalar eşitdik. Hətta Zelenskinin də NATO-nun yetərsizliyi ilə bağlı dedikləri və dünyanın artıq yeni bir kollektiv müdafiə təşkilatına ehtiyacı olduğu fikri bu təşkilatın artıq qeyri-effektiv olduğunun göstəricisidir.

Bütün bu nüanslar NATO-nun dağılması üçün əsaslı amillərdir. Təbii ki, bu, bir gecədə baş verməyəcək. Amma proses alyansın dağılmasına doğru gedir. Bütün bunlardan sonra qurulacaq yeni qlobal nizam və onun mərkəzi isə gedişata görə təyin olunacaq. Bundan əlavə, ABŞ=ın prezident seçkilərinin nəticəsi də NATO-nun birliyinə təsir edə bilər. Beləliklə, respublikaçılar seçkilərdə qalib gəlsələr, Rusiya ilə əlaqələr bir qədər yumşalacaq və NATO-ya ayrılan diqqət azalacaq. Baydenin seçkilərdən çəkilərək meydanı Trampa buraxmasından sonra buradakı vəziyyət də NATO-nun əleyhinə işləyəcək.



***Zərdüşt Quluzadə***



**Elçin Bayramlı**

# Acı dadmayan soğan

***Dünyada əhali artır və təbii olaraq qidaya tələb də yüksəlir. Müxtəlif hesablamalara görə, düzgün bölüşdürüləcəyi halda indikindən 2 dəfə daha çox əhalini təmin edə biləcəyi halda ədalətsiz bölünmə nəticəsində qida ehtiyatları planetdəki bütün insanların ehtiyacını ödəmir. Hesablamalara görə, təkcə ABŞ və Britaniyada zibilliyə atılan yararlı qidalar 1 milyarda yaxın adamı təmin edə bilər ki, dünyada da elə bu qədər adama qida çatmır. Bunu əldə bayraq edən bəzi transmilli şirkətlər biotexnologiya imkanlarından istifadə edərək məhsul bolluğu yaratmağa çalışdıqlarımı bəyan edirlər. Lakin hələ 300 milyon nəfər acın olduğu keçən əsrin ortalarında GMO məhsullar vasitəsilə dünyada acılığın kökünün kəsiləcəyini iddia etsələr də, hazırda dünyada acların sayı 850 milyondur. Demək, aclığın kökü kəsilmək əvəzinə 3 dəfə artıb. Üstəlik, bu texnologiya daha dəhşətli bəlaları özü ilə gətirir. Bu yazıda həmin bəlalardan danışacağıq.***

Dünyada adı tibb elminə məlum olan və ya olmayan bir çox xəstəliklərə düçar olan insanların sayı sürətlə artır. Dünyanın bir çox alimləri burada GMO məhsulların böyük rolu olduğunu qeyd edir və həyəcan təbili çalırlar. Qeyd edək ki, hazırda dünya əhalisinin 70 faizindən çoxunun GMO mənşəli məhsullarla qidalandığı ehtimal olunur. Dünya əkinlərinin isə azı 30 faizində trasgen toxumlar əkilir.

Elmi araşdırmalara görə, geni dəyişdirilən məhsullar insanın immun sistemini zəiflədir. Bu da müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxarır. Adi bir fakt- gen mühəndisliyinin geniş inkişaf etdiyi ABŞ-da əhalinin 70 faizi allergiyadan əziyyət çəkir. GMO-nun qadağan edildiyi İsveçdə isə, belə şəxslərin sayı əhalinin cəmi 7 faizini təşkil edir.

Fransada, Rusiyada, Almaniyada və sair ölkələrdə aparılan araşdırmalarda trasngen məhsuların xərçəng törətdiyi və digər ciddi xəstəliklərə səbəb olduğu ortaya çıxıb.

Trasgen məhsullar sonrakı nəsillərdə özünü daha çox biruzə verir. Bir çox alimlər sonsuzluq hallarının artmasını və digər təhlükəli xəstəliklərin çoxalmasının əsas səbəblərindən biri kimi GMO-nu qeyd edirlər.

Dünyada biznes maraqları hər şeydən üstün olduğundan əsas məsələ budur- tez, az xərclə, çoxlu və davamlı pul qazanmaq. Qlobal şirkətlər GMO ilə immunitet sistemi çökdürülmüş, bioloji olaraq xəstələndirilmiş insanlara çox sayda bahalı dərman növlərini satmaqdan daha çox gəlir götürülür.

Getdikcə təbii məhsullar sıradan çıxır. Artıq soğan belə acı dadmır. Təbii fitrətindən çıxarılmış qida məshulları insanın genlərini belə dəyişir. GMO immuniteti zəiflədərək bütün mümkün qorxulu xəstəliklər üçün qapıların açılması deməkdir. Həm də söhbət təkcə fiziki xəstəliklərdən getmir. GMO psixologiyanı, şüuru, insani hissləri belə dəyişdirmək gücündədir.

Bəzi qlobal dairələr ölkələrin ərzaq təhlükəsizliyinə tam nəzarət etmək məqsədi güdürlər. GM olunmuş orqanizmlərin məhsullarını, toxumlarını bütün dünyada yaymaqla, ölkələri özlərindən asılı vəziyyətə salırlar. Bu isə milli və dövlət təhlükəsizliyi cəhətdən son dərəcə təhlükəlidir.

Həmin korporasiyalar bir il toxum verməsə, həmin ölkənin kənd təsərrüfatı çox ağır vəziyyətə düşə bilər. Ölkəmizin böyük təbii potensialı var, milyard tonlarla təbii kübrə var, münbit torpaqlar, gözəl iqlim şəraiti, məhsuldar təbii toxumlar var. Bu halda biz niyə hansısa şübhəli xarici şirkətdən asılı vəziyyətə düşməliyik?

Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunda bitkilərimizin genləri qorunur. Orada zəngin genefond var. Bu İnstitut milli sərvətimizdir və ona yaxşı imkanlar yaradılmalıdır. Yerli təbii toxumlar artırılmalı və geniş tətbiq edilməlidir.

GMO bitkilər təkcə insanın deyil, təbiətin də bioloji strukturunu dəyişir. Bu bitkilərin ən təhlükəli effektlərindən biri də ətrafda olan bitkilərə yoluxaraq onları genetik zibilləmələridir. Amerika, Rusiya və Almaniyada aparılan araşdırmalar göstərdi ki, bu bitkilərin çiçəklərinin tozları külək, su vasitəsilə, quşlarla, həşəratlarla yüzlərlə, minlərlə km məsafəyə yayıla bilir. Bu cür genetik zibillənmənin nəticəsi sonda bioloji müxtəlifliyin məhvi deməkdir.

Qısası insanların və bütün canlı aləmin gen məbədinə toxunmaq çox ağır fəsadlara səbəb olur. Milli genefond zədələnir, təbiət məhv olur, torpaq zəhərlənir, üstəlik ölkənin sterateji iqtisadi təhlükəsizliyi də zərbə altına düşür. Ona görə də, fikrimizcə, Azərbaycan öz təbii resurslarına güvənərək, sağlam, təhlükəsiz və təbii ərzaq istehsalına üstünlük verməlidir. Bunun üçün bütün imkanlar var.

# Bir əlifba xəstəlik – Hepatitlər






***"Hepatit" qaraciyərin xəstəliyidir. Törədicisi qan tərkibli çox dəyişkən bir virusdur. Daha təhlükəlisi isə odur ki, tez-tez öz formasını və genotipini dəyişdiyinə görə diaqnostikasında və müalicəsində müəyyən problemlər yaradır. Bu dəyişkən xassəsinə görə onun diaqnostik aparatlar vasitəsi ilə təyin edilməsi, dolayısı ilə müalicə dərmanları çox bahalıdır, eyni zamanda uzun müddətlidir.***








Hepatit B və C ən zərərli növlərdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, hər il dünyada 1,3 milyon insan bu virusun yaratdığı xəstəliklərdən ölür. Bu, hər 30 saniyədə bir Hepatit ölümü deməkdir. Hepatitin hər gün sürətlə yayılmasının əsas səbəbi isə cəmiyyətin bu virusdan qorunma yollarını hələ də bilməməsidir. ÜST-ə görə Hepatit B Sakit okeanın qərb regionunda (Çin, Yaponiya və Avstraliya) 97 min nəfərdə, Afrikada 65 milyon insanda rastlanıb. Cənub-Şərqi Asiya regionunda (Hindistan, Tailand və İndoneziya) 61 milyon insanda müşahidə olunur. ÜST bildirir ki, Hepatit B hər il dünyada 20 milyon insana yoluxur.

Hepatitə əlinizdəki kiçik bir yaradan, stomotoloqdan, doğum evindən, hepatitli biri ilə cinsi əlaqədən, hepatitli insanın qanına təmas etdikdə, birdəfəlik itifadə üçün nəzərdə tutulmuş tibbi alətlərin təkrar istifadəsindən, hepatitli anadan doğularaq, hepatitli insanın üzqırxan aləti, diş fırçası, dırnaq qayçısı kimi gigiyenik əşyalarına toxunaraq, hemodializ və ya akapunktur (iynəsancma ilə müalicə) prosesləri zamanı yoluxa bilərsiniz.

Hepatit B virusu AİDS-dən 100 dəfə artıq yoluxucu virusdur, müalicə ilə nəzarət altında saxlanması mümkündür, lakin bunun üçün erkən diaqnoz vacibdir. Əgər vaxtında aşkarlanmasa və müalicə edilməsə gizli inkişaf edən xəstəlikdir, bunun da nəticəsi qaraciyərin serrozu və ya xərçəngidir. Müasir texnologiya Hepatit B-nin aşkarlanması üçün bütün imkanlara sahibdir, bunun üçün bu təhlükəli virusun aşkarlanması əvvəlki illərə nisbətən daha asandır. Peşəkar həkim lazımı avadanlıq olduğu təqdirdə qan analizi ilə bunu təyin edə bilər.

Həkimlər Hepatit B virusundan qorunmağın ən güvənli yolunun bu virus əleyhinə peyvənd olduğunu deyirlər. Yoluxma baş verdikdən sonra isə qaydasında aparılan müalicə - iynə və dərman təyinatı vacibdir. Hepatit B virusunun xüsusilə hamilələrdə daha təhlükəlidir, 1998-ci ildən bəri dünyada bu virusa qarşı peyvənd də tətbiq edilir. Həkimlər deyir ki, yenidoğulmuşlara dərhal Hepatit B əleyhinə peyvənd edilir, amma xəstəxanalarda yox, evində, ara həkimlərinin evində doğan qadınların da olduğunu nəzərə alsaq, onda Hepatit B-nin yayılmasının qarşısını tam ala bilmədiyimizi görərik. Hepatit B virusu daşıyan anaların doğuşdan əvvəl müalicə edilməsi, doğulan uşağa ilk 8 saat ərzində Hepatit B peyvəndinin və dərmanının verilməsi uşağın bu təhlükəli virusdan qorunmas üçün vacibdir. Tibb elminə görə, Hepatit B peyvəndi uşaq doğulanda və 6-cı ayda 3 doza halında vurulmalıdır, yaxşı olar ki, valideynlər 1 yaşında uşağı Hepatir B testindən də keçirsinlər.

Hepatit A ən çox nəcislə çirklənmiş qida və ya içməli su istehlakı və ya əvvəlcədən bu növə yoluxmuş şəxslə birbaşa təmas nəticəsində ötürülür. Gigiyena şərtlərinin tam əməl edilmədiyi aşağı və orta gəlirli ölkələrdə Hepatit A-ya daha çox rast gəlinir. 1998-ci ildə Çinin Şanxay şəhərində çirkli suya görə 300 min insan bu xəstəliyə yoluxmuşdu. Əgər immun sistemi qüvvətli olarsa onun simptomları qısa müddətdə yox olur və demək olar ki, hər kəs sağalır. Ancaq ölümcül qaraciyər çatışmazlığına səbəb ola bilər.

Məlumat üçün qeyd edək ki, bu gün dünyada Hepatitin A, B, C, D, E tipləri geniş yayılıb. Dünyada qaraciyər xərçənginə tutulanların 78 faizi Hepatit B və ya C daşıyıcılarıdır. Hepatit vurusları hər il dünyada 1 milyon insanın ölümünə səbəb olur. Dünyada hər 12 insandan birində xroniki Hepatit var və bu insanların əksəriyyəti də xəstəliyindən xəbərsizdir.

Hepatit B-yə yoluxmuş insanın əvvəlcə qaraciyər hüceyrələrində iltihabi proses başlayır, xəstədə iştahasızlıq, ürəkbulanma, qusma, zəif qızdırma, sidiyin tündləşməsi və sarılıq əmələ gəlir. Hepatit B virusuna yoluxma baş veribsə dərhal həkimə müraciət edin. İlkin 24 saat ərzində Hepatit B immunoqlobulinlərinin inyeksiyası sizi Hepatit B-nin inkişafından xilas edə bilər. Bununla yanaşı, ardıcıl olaraq üç dəfə Hepatit B peyvəndini almanız gərəkdir.

Heç bir əlamət olmasa belə Hepatit B ilə yoluxmusunuzsa, o sizin qaraciyərinizi zədələyə bilər və özünüz də bilmədən sizdən digər insanlara keçə bilər. Odur ki, əgər azacıq da yoluxma təhlükəsini mümkün hesab edirsinizsə mütləq müayinə olunun. Bununla həm özünüzü, həm də yaxınlarınızı qorumuş olarsınız.

Hepatit B əsasən doğuş zamanı anadan uşağa, çirkli iynələr və şprislər, döymə-tatuaj, pirsinq, yoluxmuş qan və cinsi əlaqə zamanı ötürülür. Hepatit C və D həmçinin yoluxmuş qan vasitəsilə, məsələn, iynələrin və şprislərin paylaşılması və ya yoluxmuş qanın köçürülməsi yolu ilə ötürülür. Yalnız Hepatit B olanlar Hepatit D-yə yoluxa bilər və bu, xroniki Hepatit B olanların 5%-də rastlanır. Hepatit E çirklənmiş su və qida qəbulu ilə ötürülür. Ən çox Cənubi və Şərqi Asiyada rast gəlinir və xüsusilə hamilə qadınlar üçün zərərli ola bilər.

ÜST-yə görə, hepatitin simptomları qızdırma, zəiflik, iştahsızlıq, ishal, ürəkbulanma, mədə ağrısı, tündləşmiş sidik və nəcis, dərinin və göz ağlarının sarılığıdır. Eyni zamanda, hepatiti olan bir çox insanlarda yalnız yüngül simptomlar da ola bilər və ya heç bir simptom hiss edilməz. ÜST-nin 2022-ci ildə dərc etdiyi məlumatlara görə, dünyada Hepatit B xəstələrinin yalnız 13%-nə və xroniki Hepatit C xəstələrinin yalnız 36%-nə diaqnoz qoyulub. Təhlükə ondan ibarətdir ki, onlar bilmədən infeksiyanı başqalarına ötürə bilərlər.

Hepatit A-nın xüsusi müalicəsi yoxdur. Lakin yoluxmuş insanların əksəriyyəti tez sağalır və immunitet yaranır. Xroniki Hepatit B və C antiviral dərmanlarla müalicə olunur ki, bu da serroz və qaraciyər xərçənginin inkişaf riskini azaldır. Hepatit A və B-nin qarşısını alan dərmanlar var. Körpələr dünyaya gələn kimi onlara vurulaHepatit B peyvəndi xəstəliyin anadan uşağa keçməsinin qarşısını alır və Hepatit D-dən də qoruya bilir. Hepatit C-yə qarşı peyvənd hazırlanmayıb və Hepatit E peyvəndləri də hazırda geniş yayılmayıb.

ÜST 2030-cu ilə qədər Hepatit B və C-yə yoluxanların sayını 90% və bu xəstəliklərdən ölənlərin sayını 65% azaltmaq istədiyini bildirir. Lakin yenə eyni qurumun statistik məlumatlarına baxanda görünür ki, hepatit viruslarından ölənlərin sayı artır. ÜST bildirir ki, yüz milyonlarla insan hələ də hepatit testindən keçmək üçün mübarizə aparır və dünya ölkələrinin yalnız 60%-i pulsuz və ya sığortalı hepatit testini təmin edir. Afrika ölkələrinin isə yalnız üçdəbirində bu imkan var.

***Lalə Mehralı***

# Ermənilər niyə yenə də hərbi təxribatlara əl atır?



***Ermənistanın təxribatçı addımları, onun daxili siyasi vəziyyətindəki zəifliyi əks etdirir. Bu ölkənin siyasi rəhbərliyi daxili problemlərdən diqqəti yayındırmaq üçün bu cür təxribatlara müraciət edir. Erməni hökuməti, münaqişənin yenidən alovlanması ilə daxili siyasi sabitliyi qorumağa çalışır, lakin bu, əksinə, onun zəifliyini və xalqının etimadını itirməsinə səbəb olur. Ermənistanın hərbi təxribatları, onun silahlı qüvvələrinin zəifliyini də göstərir. Azərbaycan ordusunun yüksək döyüş qabiliyyəti və müasir hərbi texnologiyalardan istifadə etməsi ilə müqayisədə, Ermənistanın hərbi potensialı çox geridə qalır. Bu cür təxribatlar, Ermənistanın hərbi gücünün yetərsizliyini açıq şəkildə ortaya qoyur.***

Ermənistanın son təxribatları regionda sülh və sabitliyin bərqərar olmasını çətinləşdirir. Ümumumiyyətlə, müxtəlif beynəlxalq tədbirlər ərəfəsində və ya ondan sonra erməni tərəfi müxtəlif təxribatlara əl atır. Bu yanaşma Ermənistan üçün artıq ənənə halına çevrilib. Bu dəfə isə ermənilər Böyük Britaniyada keçirilən Avropa Siyasi Birliyinin 4-cü Zirvə toplantısından sonra hərbi təxribat törədib. İyulun 20-si saat 22:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da mediaya açıqlamasında bildirib ki, Ermənistanın təxribatları onun üçün yaxşı heç nə vəd etmir. "Hesab edirəm ki, bu, qəbuledilməzdir. Son aylar ərzində iki ölkə arasında sərhəddə stabil vəziyyəti müşahidə edirdik. Normallaşma istiqamətində işlər aparılır. Aprel ayından başlayaraq delimitasiya ilə bağlı müsbət nəticələr görürük. Əgər Ermənistan tərəfi normallaşma, sülh sazişi üzərində irəliləmək istəyirsə, təxribatlardan çəkinməlidir. Azərbaycan Silahlı Qüvvələri bütün sərhəd boyu tam üstünlüyə malikdir".

Qeyd edək ki, sərhəddəki erməni təxribatları ilk deyil. Hələ Ermənistan ordusu aprelin 10-da, Azərbaycanın Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının Qubadlı rayonunun Cicimli yaşayış məntəqəsinin ərazisindəki sərhəd döyüş məntəqəsinin xidməti ərazisində müqabil ərazideki Ermənistanın Nerkin Xnzoresk kəndi istiqamətindən 2 nəfərin dövlət sərhədini pozaraq 200 baş mal-qaranı təxminən 300 metr Azərbaycan ərazisinə keçirməsi aşkar olunmuşdu. Dövlət sərhədinin pozulmasının qarşısını alan sərhəd naryadına Ermənistan silahlı qüvvələrinin döyüş postundan atəş açılmış və nəticədə baş leytenant Rövşən Məmmədov yaralanmışdı.



## İrəvan seçdiyi bu yolla sülh müqaviləsinin imzalanmasından yayınır

Hadisə baş verən gün Azərbaycan hadisəni Ermənistan hərbçilərinin törətdiyi barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmışdı. Bu pozuntuya görə məsuliyyəti rəsmi İrəvanın daşıdığı bildirilmişdi. Nəhayət aprelin 12-də Ermənistanın İstintaq Komitəsi açıqlama yayaraq atəşi öz sərhədçilərinin açdığını və fakt üzrə cinayət işinin başladıldığına dair rəsmi məlumat yaymışdı. Bu etiraf ölkəmizin növbəti qələbəsi idi. Azərbaycan başqa addımlar da ata bilərdi. Amma gözlənti o idi ki, Ermənistan araşdırsın və nəticəsini bəyan etsin.

Bəli, törətdiyi bütün təxribatlara layiqli cavabını alsa da, Ermənistanın bu kimi desturiktiv addımları regionda sülhün bərpası istiqamətindəki təşəbbüslərə ziyan vurur. Erməni tərəfinin təxribatları sülh prosesinə əngəl yaradır. Sabitliyin hökm sürdüyü bir mühitdə bu kimi təhrikedici əməllər Ermənistan tərəfindən bəyan olunan sülh mesajları ilə açıq-aşkar ziddiyyət təşkil edir. Eyni zamanda, bu kimi təxribatların məhz Fransanın təhriki ilə olması ciddi suallar yaradır. Bu təxribatlar Ermənistanın başda Fransa olmaqla bir sıra dövlətlər tərəfindən silahlandırılmasının nəticəsi olmaqla yanaşı, həm də onun sülh müqaviləsinin imzalanmasından yayınmasını sübut edir. Böyük Britaniyada Paşinyanın Fransa prezidenti Makronla görüşüb ondan təlimatlar alması da bunu təsdiqləyir. "Biz bir ay ərzində sülh sazişini imzalamağa hazırıq" deyən rəsmi İrəvan gerçəkdə müxtəlif bəhanələrlə prosesi uzadır. Bunun da bütün məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə düşür.

Görünən odur ki, Ermənistan yenə də hansısa beynəlxalq dəstəyə inanıb Azərbaycana qarşı təhlükəli addımlar atır. Lakin Azərbaycan-Ermənistan münasibətlərinə qarışan olmasa məsələlər normal məcrasında həll oluna bilər.

Sözügedən təxribatlar isə bir daha sübut edir ki, Ermənistan Azərbaycanla sülh sazişi imzalamaq imkanlarını hər vasitə ilə heçə endirməyə çalışır. Görünür Müzəffər Ali Baş Komandanın "dəmir yumruq yerindədir" xəbərdarlığından dərs almayan işğalçılar unudurlar ki, onların qarşısında 44 günlük Vətən müharibəsində Zəfər çalan güclü Azərbaycan Ordusu var. Məğlub ölkə müxtəlif manipulyasiyalara əl atmaqla sülh prosesini ləngitməyə çalışır. Eyni zamanda, ötən il sentyabrın 19-dək Ermənistan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərdən yayınmaqla silahlı qüvvələrinin bir hissəsini Azərbaycan ərazilərində saxlamaqda davam edirdi. Lakin Azərbaycanın cəmi bir gün ərzində uğurla tamamladığı lokal antiterror tədbirlərinin nəticəsi işğalçının bu niyyətlərini gözündə qoydu. Təəssüflər olsun ki, Ermənistan bütün bu reallıqların fonunda mövcud imkanlardan imtina edib süni olaraq prosesi ləngitmək istəyir. İşğalçı ölkənin üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməsi, konstitusiya dəyişikliyini etməməsi birbaşa məkrli məqsədlərlə bağlıdır. Bir neçə gün əvvəl Şuşa Qlobal Media Forumunda çıxışı zamanı Prezident İlham Əliyev bəyan etdi ki, Ermənistan Konstitusiyası dəyişmədən heç bir sülh müqaviləsinin imzalanmasından söhbət gedə bilməz: "Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni, bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil".

**Nigar Orucova**









# Əli Kərimlinin satqınlığını əks etdirən səs yazısı üzə çıxa bilər

***Müxalifətdə olmaq dövlətə müxalifətçikdə olmaq deyil. Cəmiyyətin inkişafına, demokratik proseslərin sürətləndirilməsinə dəstək verilməsi müxalifət partiyalarının başlıca amalı və prinsipi olmalıdır. "Siyasi partiyalar haqqında qanuna" və digər qanunvericilik aktlarına görə də mövqeyindən asılı olmayaraq bütün siyasi partiyaların fəaliyyət istiqamətləri və hədəfləri açıq şəkildə göstərilib.***

malarına gətirib çıxarır. Fikir verilsə bir daha aydın olar ki, AXCP, Müsavat, Milli Şura, Real və digər dağıdıcı müxalif partiyaları daim destruktiv fəaliyyətə üstünlük veriblər. Hər zaman milli maraqlarımız, dövlət və dövlətçiliyimizə qarşı əks-kampaniya aparıblar. Sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkilərinin yaxınlaşması ilə bu ünsürlərin separatçı fəaliyyətləri daha da aqressiv xarakter alıb. Demək olar ki, Əli Kərimli, Cəmil Həsənli və onların ətrafında fırlanan trollar bütün günü sosial şəbəkələrdə qarayaxma kampaniyası aparmaqla məşğuldurlar.



Təəssüflər olsun ki, Azərbaycanın dağıdıcı müxalifəti qanunvericilik aktlarını pozmaqla yanaşı, ictimai maraqları və tələbləri də nəzərə almırlar. Fəaliyyətlərini yalnız dövlətçilik və milli maraqlara xələl gətirmək üzərindən öz şəxsi mənafelərini təmin etməyə cəhdlər göstərirlər. Bu gün bütün dünya azərbaycanlıları, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışır, Qarabağ iqtisadi ərazilərində separatçıların və onların himayədarlarının ifşası istiqamətində müvafiq işlər görülür, dağıdıcı müxalifət isə xarici qaranlıq dairələrlə birləşib milli maraqlarımıza ziyan vurmağa cəhdlər edirlər. Bu cəhdlər isə uğursuzluğa düçar olur. Çünki hər kəs Əli Kərimlinin, Cəmil Həsənlinin, G.Hacıbəylinin və digərlərinin özlərinin müstəqil mövqelərinin olmadığını, daim xarici ağaların sifarişləri ilə hərəkət etdiklərini bilirlər.

### Əli Kərimli hər şeyi qara rəngdə görür

Dağıdıcı müxalif ünsürlərin düşüncəsinə görə, Azərbaycanda hər şey qara zolaqdan ibarətdir, hansısa bir uğur, qələbə mövcud deyil. Yəni, 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsini görmək üçün gözləri kor, Azərbaycanın beynəlxalq reytinqlər siyahısında öncül yerlərdə olması, adının hörmətlə çəkilməsini eşitmək üçün qulaqları kardır. Təbii ki, bu cür fəaliyyətlə cəmiyyətdə uğur qazanmaq və siyasi dəstək əldə etmək mümkün deyil. Necə ki, bunun acı nəticəsini müxalif partiyalar yaşamaqdadırlar. Ölkəmizdə keçirilən bütün seçkilərdə müxalifətin rüsvayçı məğlubiyyətlə üzləşməsi cəmiyyətin onlara vurduğu sərt şillədir, ən böyük cəzadır. Buna baxmayaq, onlar seçkilərdə uğur qazana bilməmələrinin səbəblərini elmi-siyasi təhlilini aparmırlar. Ən azı papaqlarını qarşılarına qoyub, seçki məğlubiyyətinin səbəblərini müzakirə etmirlər. Bu da növbəti seçkilərdə onların yenidən acınacaqlı məğlubiyyət yaşa-

### Dağıdıcı müxalifətin sonu yaxınlaşır

AXCP, Milli Şura funksionerləri özlərinə bir sual vermirlər ki, bu dövlət onlara nə edib? Niyə xalqa düşmən kəsiliblər? Qrant o qədərmi şirindir? Axı xarici maraqlı dairələrin sifarişləri əsasında dövlət maraqlarına qarşı çıxmaq onları cəmiyyət önündə gözdən salır. Şübhə yoxdur bu suallara cavab vermək imkanları olsa, məsuliyyətləri artar və yanlış yoldan çəkinərlər. Görünən isə ondan ibarətdir ki, hələ uzun müddət onlar yanlış yolların yolçuları olacaqlar. Çünki üzərlərinə bir hərfini belə redaktə etmələri mümkün olmayan öhdəliklər götürüblər. Əgər cəsarətə gəlsələr, o zaman Əli Kərimlinin hansısa xarici maraqlı şəbəkə təmsilçisi ilə separat danışıqlarını əks etdirən səs yazısı üzə çıxar və bununla da ifşa olunar. Onsuz da vaxtaşırı olaraq Ə.Kərimlinin başının üstündə bir zaman işbirliyinə dair razılaşma əldə edib fəaliyyətə başladığı "dost"ları tərəfindən xəbərdarlıq xarakterli buludlar dolaşır. Xaricdəki antimilli ünsürlərdən Qabil Məmmədovun, Trol Sadıqlının, Sevinc Osmanqızının Ə.Kərimliyə ünvanlanan hədə mesajları təsadüfi sayıla bilməz. Bununla xarici maraqlı dairələrin "boss"ları Ə.Kərimli ilə aralarında olan razılaşmaya dair danışıqlarını və yazışmalarını antimilli ünsürlər vasitəsilə ictimaiyyətə açıqlaya bilərlər. Bu digər faktlar önündə boynu tükdən də incə olduğundan Ə.Kərimli tapşırıqları icra edir. Bu fəaliyyət nə qədər davam edəcəyini demək çətin olsa da, hər halda ortada olan fakt ondan ibarətdir ki, Ə.Kərimlinin sonu yaxınlaşır. Onun xilası yalnız könüllü şəkildə Azərbaycanın hüquq-mühafizə orqanlarına təslim olması ola bilər. Bu halda bağışlanması, ən azı yüngül cəza ilə uzunmüddətli həbsdən qurtulmaq şansı ola bilər. Əks halda fəlakət onun qapısı önündədir.

**İLHAM ƏLİYEV**



# Viktor Orban Asiyaya "köçür"

## *Macarıstanın baş naziri daha çox anti-Qərb ritorikasından çıxışı edir*

Avropada hələ də Ukraynadakı "sülh missiyası"na görə bağışlanmayan Macarıstanın Baş naziri Viktor Orban Moskva və Pekinə səfərləri də daxil olmaqla, keçən həftə sonu yenə Qərb müttəfiqlərini açıq-aşkar şoka salmağa başlayıb. Qonşu Rumıniyada keçirilən festivalda çıxış edən cənab Orban qaçılmaz olaraq Avropanın tənəzzülünü və Asiyanın yüksəlişini proqnozlaşdırıb, Rusiyanın dünyada getdikcə daha çox dəstək qazandığını söyləyib, Ukraynanın Aİ və NATO-ya daxil olmasının mümkünlüyünə şübhə etdiyini bildirib və Donald Trampın ABŞ prezidenti vəzifəsinə namizədliyini də birbaşa dəstəkləyib. Rumıniyanın mərkəzində yerləşən B ile Tusnad şəhəri öz mənzərəli mənzərələri və mineral bulaqları ilə çoxdan yerli ictimaiyyətə məlumdur. Ancaq hər il keçirilən yay mədəniyyət və idman festivalının əsas qonağı olmasaydı, ölkənin 2 mindən az əhalisi olan, əsasən etnik macarlardan ibarət bu ən kiçik şəhərinin dünya mediasında xatırlanması çox maraqlıdır.

Məhz burada, Rumıniya Transilvaniyasında Macarıstan lideri hələ 2014-cü ildə Macarıstanda "liberal demokratiya" yaratmaq niyyətini bəyan edib, 2022-ci ildə isə Avropanın "qanunsuz demokratiya"ya çevrilməsinə qarşı çıxaraq, digər qitələrdən gələn mühacirlərin qəbulunu kəskin tənqid etmişdi.

Cənab Orbanın hazırkı festivaldakı çıxışı Avropa standartlarına görə heç də az təxribat xarakterli olmadı. Şənbə günü tərəfdarları qarşısında çıxış edən Macarıstan lideri mahiyyət etibarı ilə Avropanın qlobal güc mərkəzi kimi tənəzzülünü proqnozlaşdırdı və bu rola Avropa quruluşunun son illərdə xüsusilə üstünlük verməyi şəxsləri təyin etdi. "Avropa öz maraqlarını qorumaqdan vaz keçdi. Bu gün Avropanın etdiyi hər şey qeyd-şərtsiz Birləşmiş Ştatların demokratikyönlü xarici siyasətini izləyir... hətta özünü məhv etmək bahasına da olsa", deyə siyasətçi qeyd edib. Sonra o, inamla Asiyanın yaxın onilliklərdə "dünyanın dominant mərkəzinə" çevriləcəyini, xüsusən də Çin, Hindistan, Pakistan və İndoneziyanı qeyd edib. "Və biz qərblilər rusları bu bloka itələdik" deyə macar spikeri Rusiyanı bura əlavə edib. Viktor Orban onun mövqeyinin ümumavropa məsələsindən kəskin şəkildə fərqləndiyi bir sıra digər məsələləri də xatırlatmadı.

Beləliklə, Orban bir daha Avropada Avropa İttifaqı və NATO-nun üzvü sayılan Ukraynanın nə vaxtsa bu assosiasiyalara üzv ola biləcəyinə şübhə etdiyini bildirib. "Biz avropalıların bunun üçün pulumuz yoxdur. Ukrayna bufer dövlət mövqeyinə qayıdacaq", - Macarıstan lideri qeyd edib. O əlavə edib ki, təkbətək Kiyev və Moskva heç vaxt sülhlə razılaşmayacaqlar, çünki hər bir tərəf hələ də öz qələbəsinə inanır və buna uyğun olaraq, atəşkəs kənardan gəlməlidir və beynəlxalq təhlükəsizlik təminatları "təsdiqlənməlidir".

O, Rusiyanın dünyadakı mövqeyindən danışarkən qeyd edib ki, Qərbin "zəifliyi" fonunda bu, rasional və proqnozlaşdırıla biləndir. "Qərb dünyanı Rusiyaya qarşı durmağı və Qərbi mənəvi cəhətdən dəstəkləməyi əmr edib. Reallıqda isə əksinə, hamı yavaş-yavaş Rusiyanı dəstəkləyir", - deyə siyasətçi qeyd edib. Və o, bunun üçün qeyri-trivial izahat verdi: "Rusiyanın "yumşaq gücü"nün ən güclü beynəlxalq cəlbediciliyi LGBT insanları rədd etməsidir (hərəkət Rusiya Federasiyasında ekstremist kimi tanınır və qadağandır). Bu həssas mövzunu inkişaf etdirən cənab Orban bu yaxınlarda Parisdə Olimpiya Oyunlarının açılış mərasimini xatırladıb (burada cinsi azlıqların nümayəndələrinin iştirakı ilə Son Şam yeməyinin parodiyası da daxil idi) və bunu Qərbin "ortaq bir şeyin olmadığının sübutu" adlandırıb.

Nəhayət, Viktor Orban da Donald Trampın namizədliyini birbaşa dəstəkləyərək ABŞ-da keçiriləcək prezident seçkiləri mövzusuna toxunub. Lakin bu, heç kəs üçün təəccüblü olmayıb, düz səkkiz il əvvəl, 2016-cı il ABŞ seçki kampaniyasının qızğın vaxtında Macarıstanın baş naziri eyni Beyl-Tusnadda ilk dəfə olaraq artıq ona dəstək vermiş cənab Trampı dəstəkləyib. Cənab Orbanın çıxışına ilk reaksiya verən ABŞ-ın Macarıstandakı səfiri David Pressman oldu və X sosial şəbəkəsində qeyd etdi ki, bu cür ritorika Macarıstanın Amerika ilə münasibətlərini dəyişdirmək riski daşıyır. "Bizim Amerika Birləşmiş Ştatlarında seçkilərdə müəyyən bir namizəd üçün bu qədər açıq və yorulmadan təbliğat aparacaq, nə olursa olsun, bunun yalnız Macarıstana kömək edəcəyinə və ya heç olmasa kömək edəcəyinə əmin olan başqa heç bir müttəfiqimiz və ya tərəfdaşımız yoxdur... ona şəxsən kömək edin. Bu, çətin ki, müttəfiqdən gözlədiyimiz şeydir", - diplomat qeyd edib.

Ukrayna münaqişəsi ilə bağlı fərqli fikirləri ilə uzun müddətdir həmkarlarını qəzəbləndirən Macarıstanın baş nazirinin şənbə çıxışına Avropa paytaxtlarından hələ də qəzəbli şərhlər gəlməyib. Bununla belə, son vaxtlar Brüsseldən onun hərəkətləri ilə bağlı artan tənqidlər fonunda, xüsusən də Budapeştin Aİ-yə hazırkı sədrliyi fonunda, hansısa məzəmmətin gəlməsi mümkündür. Yada salaq ki, iyulun əvvəlində Viktor Orban "sülh missiyası"na başlayıb, bu missiya çərçivəsində növbə ilə Kiyev, Moskva, Pekin və Vaşinqtona səfər edib.

Səfərləri nəticəsində o, Aİ-yə Rusiya-Ukrayna münaqişəsinin həllinə yeni yanaşmalar hazırlamaq təklifi ilə çıxış edib. Bununla belə, bu təşəbbüs Avropa paytaxtlarında Macarıstan liderinin heç bir "sülh missiyası" üçün mandat olmadan həddən artıq çox şey götürdüyünə dair ittihamlarla qarşılandı.

Yeri gəlmişkən, cənab Orbanın Moskvaya səfərindən sonra üzləşdiyi məzlumluq bu yaxınlarda Rusiyada da şərh edilib. Belə ki, iyulun 26-da Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd edib ki, Moskvaya son səfəri üçün Macarıstanın baş naziri "bütün Avropa İttifaqı tərəfindən ələ salınıb". Lakin o əlavə edib ki, zaman keçdikcə avropalı siyasətçilər Macarıstanın baş naziri kimi Rusiya Federasiyasının mövqeyini anlamağa çalışacaqlar.

Brüssel Viktor Orbanın "özbaşınalığına" cavab hazırlayır. Narahatlıq edənin özü də ötən şənbə günü eyni mesajı dilə gətirib. Macarıstanın "sülhməramlı missiyası"nın başlamasından sonra Ukrayna prezidenti Vladimir Zelenskinin Donald Trampa zəng etdiyini və Ukraynanın xarici işlər naziri Dmitri Kulebanın Pekinə səfər etdiyini xatırladan cənab Orban "mayalanmanın başlandığını" qeyd edib. Qərb düşərgəsindəki əsas anti-Qərb düşərgəsi mötədil nikbinlik nümayiş etdirdi: "Yavaş da olsa, biz Avropanın müharibəni dəstəkləmək siyasətindən sülhə dəstək siyasətinə doğru irəliləyirik".

**V.SALAH**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# İtirdiyimiz xüsusiyyətlər: dostluq










**XIII YAZI**

"Dost dar gündə tanınar" deyib atalar. "Dost dosta tən gərək, tən olmasa gen gərək" də deyiblər. "Dost min isə azdır, düşmən bir isə çoxdur",- deyə öyüd verib böyüklər. Yaxşı dostluqlar qurmağın, etibarlı yoldaşlıqlar inşa etməyin vacibliyi ilə dolub-daşır xalq yaradıcılığımız, əfsanələr, nağıllar, dastanlar. Dost yolunda ölümə gedənlərin, dostluq üçün alova girənlərin rəvayətlərini dinləyə-dinləyə böyümüşük hamımız. Dost bildiklərinin xəyanətini görənləri, dostlarının düşmənə satdığı qəhrəmanların məşəqqətlərini də eşitmişik o rəvayətlərdə. Biz dostluq haqqında çox şey öyrənmişik zamanında.

Dostluq, bir-birinə hörmət edən, güvənən, etibar edən insanların aralarında qurduğu münasibətin adıdır. Bu, iki və ya daha çox insanın arasındakı sosial və emosional bağdır desək, yanılmarıq. Bu günədək bir çox sosiologiya, sosial psixologiya, antropologiya və fəlsəfə kimi akademik məqalələrin, araşdırmaların mövzusu olmuş, dəfələrlə tədqiq edilmiş bu bağ ən təməl ehtiyaclarımızdan biridir.



Yaxşı dostluqlar təmənnasız qurulur, tərkibində də təmənnasız ötülülən duyğular olur – sevgi, məhəbbət, ədalət, inam, güvən, mərhəmət, sədaqət, vicdan kimi duyğular. Əsl dostluqlar asanlıqla pozulmur, dağılmır, yaxşı dostlar çətinlik gördükcə daha da bağlanır bir-birinə. Amma bəzən olur ki, ən çətin qazanılan, amma ən asan itirilən dostluqlar da görürük. Yeni dostluqlar qazanmağın yollarını öyrədən çox kitab var, müəllifləri insanları necə təsir altına salıb dost qurmağın sirlərini yazır. Amma zənnimcə dostluqlar planlı deyil, bədahətən qurularsa zamanın sınağından keçə bilər.

Bəzən dostun, dostluqdan daha çox məna kəsb edir sənin üçün – yaxşı dost atan olur, anan olur, bacın-qardaşın olur, yoldaşın, sirdaşın olur. Mütləqdir ki, hər birimizin həyatında belə bir dostumuz olub, var. Zamanın sınağından keçən dostluqlar da var, həyatımızın hansısa bir mərhələsində o sınaqdan "2" qiyməti alıb keçmişdə qalan da. Bütün hallarda, yaxşı dostluqlar insana lütfdür.

İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq əlaqələri də müstəvi dəyişdi. Real həyatdakı münasibətlərimiz bir-bir sosial platformalara keçdi. Başqa sözlə desək sosiallaşmaq da zamana ayaq uyduraraq rəqəmsallaşdı. İndi insanlar dünyanın istənilən yerində istənilən şəxslə dostluq qura bilir. Xüsusilə məhdud fiziki imkanlara malik insanların özlərinə daha çox dostluqlar qura bilməsi üçün sosial şəbəkələrin əhəmiyyəti böyükdür. Lakin dostların ən təməl ehtiyacı olan sosiallaşma da virtuallaşandan sonra dostluq anlayışı cildini, donunu dəyişdirdi. Xüsusilə uşaqların sağlam dostluqlar qurmamalarında internetin çox təsiri var.

Ümumiyyətlə, son bir neçə ildir ki, aparılan bir çox araşdırma göstərir ki, dövrümüzün uşaqları sağlam dostluq qurulması barədə çox az məlumatlıdır və buna çox az həvəs göstərirlər. Çünki dövrün uşaqlarına daha çox "mən"ini sevməyi, xudbin olmaq, paylaşmamaq təbliğ edilir. Əksəriyyəti ən sadə sosial ünsiyyət qaydalarını bilmir, yoldaşlıqlar və dostluqların qurulmasına cəhd etmir. Onların əksəriyyəti qrup halında oynanan oyunlardan uzaq qaçır, sosiallaşmaq üçün cəhd göstərmir, daha çox smartfonu ilə vaxt keçirməyi seçir.

Təəssüflə qeyd edim ki, xüsusilə məktəb yaşlı uşaqlarda bullinqə meyillilik, zorakılıq göstərmək, qısnamaq onlarda sevgi, şəfqət, paylaşmaq, hörmət, xeyirxahlıq, yardımsevərlik, empatiya kimi bir çox hissin olmamasından irəli gəlir. Əgər bu hisslər uşaq yaşda ikən formalaşmırsa o zaman onlar qarşıdakı həyatlarında da bu hisslərdən məhrum bir ömür keçirəcəklər. Yaxşı dostluqların təməlində bu duyğular yoğrulur, o təməldə təmənna, zorakılıq, təhrik, məcburiyyət varsa o dostluğun ömrü də çox olmur.

Yaxşı dost sərvətdir, xəzinədir, ləl-cəvahirdir, onları toplayın ətrafınıza. Yaxşı dostluq sevgidir, empatiyadır, təmənnasız dəstəkdir, ən ulu tolerantlıqdır, paylaşmaqdır, etibardır, etimaddır, inamdır, güvəndir. Yaxşı dost sənsən, özünə güvəndiyin qədər güvənirsən ona. Dostluq ən çətin anlarında dincələ biləcəyin ən təhlükəsiz limandır, yorulanda başını qoya biləcəyin ən güvənli çiyindir. Yaxşı dostluqlar zəhmətdir, mahir ustası olan yıxılmaz qaladır.

Zamanın qəzəbinə uğrayan, itirdiyimiz bir çox xüsusiyyət kimi dostluqlar da silinir yaddaşımızdan. Hər şeydən şübhə edən, zəndlə baxan insanlara çevrilirik yavaş-yavaş. Təmənnasız edilən yaxşılıqlarda gizli məqsədlər axtarırıq, təmənnasız etdiyimiz yaxşılığa inanmırlar. Dostluqlar kökündən quruyur, su verilmədiyi üçün.

Yaxşı insanlarla yola çıxın, yaxşı insanlarla dostluqlar qurun. Bu çirkin dünyanın yaxşı dostluqlara, təmənnasız sevgilərə, qarşılıq güdülməyən münasibətlərə ehtiyacı var. Eqoist olmayan, xudbin olmayan, tolerant insanlarla paylaşın həyatınızı, yaşadıqlarınızı, sevincinizi, kədərinizi. Sizi olduğunuz kimi qəbul edən, onu olduğu kimi qəbul edəcəyiniz dostlar. Üzr istəməkdən utanmayacağınız, üsr istəməkdən utanmayan adamlarla dost olun. Yanında olduğunuz kimi davrandığınız, yanınızda maskalanmayan dostluqlar inşa edin. Necə deyib Siseron? "Dost insanın ikinci özüdür". Həyatınızda özünüzü tapa bilməyiniz diləyi ilə...

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
30 iyul
2024-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "Müasir dövrdə "evdə həm kişi, həm də qadın işləməlidir" düşüncəsi formalaşır"



MÜNASİBƏT

*"Qadınların təhsil və iş hüquqlarının təmin olunması ölkə qanunvericiliyi ilə tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib. O bildirib ki, ailədə qadının işləməsi müsbət haldır: "Bu, daha da təşviq olunmalıdır. Çünki qadın da hər hansı peşənin sahibidir, orta ixtisas, yaxud da, ali təhsillidir. Niyə qadın da öz peşəsini yerinə yetirməsin? Düşünürəm ki, qadınların işləməsi müsbət haldır. Digər tərəfdən də hər bir xanımın işləməsi onun ailəsinin maddi təminatına bir dəstəkdir.*

Praktikada qarşılaşdığımız hallar ki var, qadınların evdə övladlara baxması, daha çox uşaqlarla məşğul olması, sosial vəzifəni öz üzərlərinə götürməsi kimi, daha çox Azərbaycan xanımları evdə övladlara baxmaq işini öz işi hesab edir. Ailə başçıları, kişilər bir qayda olaraq işləyir, çalışır, qadınlarsa evdə övladlara baxırlar. Qadın işləyərsə, ortaya problem çıxarmı? Bu kontekstdə yanaşsaq, ola bilsin ki, övladlara baxılması ilə bağlı müəyyən problemlər yarana bilər. Amma digər tərəfdən qanunvericilikdə də nəzərdə tutulur ki, qadın yeni körpə dünyaya gətirirsə, ona analıq məzuniyyəti verilir. Bu qanunvericiliklə tənzimlənir. Daha sonrakı yaşlarda bağçalar var, uşaqlar bağçaya verilə bilir, evdə həm qadın, həm də kişi əmək fəaliyyəti ilə məşğul ola bilirlər. Düşünürəm ki, bizim yaşadığımız problem hər bir ailənin övladlarını bağçaya verə bilməməsindədir. Bunun obyektiv səbəbləri ola bilər. Ola bilsin ki, həmin ərazidə normal bağça yoxdur, yaxud, uzaq dağ rayonunda yaşayır, orada bağça yoxdur. Bu baxımdan qadın uşaqlarını uşaq bağçasına vermə imkanına malik deyil, ona görə də məcburən evdə qalıb öz övladlarına baxır. Düşünürəm ki, övladların bağçaya verilməsi bu məsələdə problemin həllinə müsbət təsir edə bilər. Qadın da sərbəst şəkildə öz işini, ixtisasına uyğun işlərdə çalışaraq yerinə yetirə bilər".

"Azərbaycan ailələrində belə bir ənənə halını almış, formalaşmış adətlər var. Qadın bir qayda olaraq evdə uşaqlara baxmalıdır, kişi işləməlidir, ailənin maddi təminatını ödəməlidir. Düşünürəm ki, müasir dövrdə bu düşüncə tərzi daha çox yerini "evdə həm kişi, həm də qadın işləməlidir" düşüncəsinə verəcək. Yeni yeni düşüncə zaman keçdikcə daha dominant olacaqdır" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Bakıda evdən 15 min manatlıq qızıl-zinət əşyaları oğurlanıb



Bakının Xətai rayonu ərazisində evlərin birindən 15 min manat dəyərində qızıl-zinət əşyaları oğurlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Xətai Rayon Polis İdarəsinin 36-cı Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər oğurluq və dələduzluğa görə məhkum olunmuş Taleh Salmanov müəyyən olunaraq saxlanılıb. Xətai Rayon Polis İdarəsində araşdırma aparılır.

# "Mançester Yunayted" üçün 100 min nəfərlik stadion tikiləcək

"Mançester Yunayted" 100 min tamaşaçı tutumuna malik yeni stadion tikməyi planlaşdırır. Bu barədə "The Telegraph" məlumat yayıb. "Qırmızı şeytanlar"ın rəhbərliyi köhnə "Old Trafford"un yenidən qurulmasındansa, yeni arenanın tikintisinin daha məqsədəuyğun variant olduğuna inanıb.

Yeni stadionun tikintisi 6 il çəkə bilər. Layihənin dəyəri ilkin olaraq 2,4 milyard avro olaraq qiymətləndirilir. Üstəlik, yeni arena "Old Trafford"a yaxın bitişik ərazidə tikilə bilər, çünki klubun böyük torpaq sahəsi var. Bu o deməkdir ki, yeni stadion tikilərkən "Mançester Yunayted" köhnə arenada oyunlarını davam etdirə biləcək.




Baş redaktor:
Bəhruz Quliyev
Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3200